# YEDDİNCİ ÇAĞIRIŞ
# AZƏRBAYCAN RESPUBLİKASI
# MİLLİ MƏCLİSİNİN
# VI SESSİYASI İCLASININ

# PROTOKOLU № 63

*Milli Məclisin iclas salonu.*
*24 fevral 2026-cı il.*

*İclasa Azərbaycan Respublikası Milli Məclisinin sədri*
***Sahibə Qafarova** sədrlik etmişdir.*

**İclasda Milli Məclisin 121 deputatı iştirak etmişdir.**

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 11.01 dəq.) |
| İştirak edir | 118 |
| Yetərsay | 83 |

**İclasın gündəliyinə aşağıdakı məsələlər daxil idi:**

1. “Azərbaycan Respublikası Milli Məclisinin parlamentlərarası əlaqələr üzrə işçi qruplarının rəhbərlərinin seçilməsi haqqında” Azərbaycan Respublikası Milli Məclisinin Qərarında dəyişikliklər edilməsi barədə.
2. “Yol hərəkəti haqqında” və “Avtomobil yolları haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).
3. “İnvestisiya fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).
4. “Tibbi sığorta haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.
5. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).
6. Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).
7. Azərbaycan Respublikasının Mülki Məcəlləsində və “Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).
8. Azərbaycan Respublikasının Əmək Məcəlləsində, “Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında” və “Əmək pensiyaları haqqında” Azərbaycan

Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

9. Azərbaycan Respublikasının Seçki Məcəlləsində, Azərbaycan Respublikasının Gömrük Məcəlləsində, “Hərbi qulluqçuların statusu haqqında”, “Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında”, “Polis haqqında”, “Gömrük orqanlarında xidmət haqqında” Əsasnamənin təsdiq edilməsi barədə”, “Dövlət qulluğu haqqında”, “Prokurorluq orqanlarında qulluq keçmə haqqında”, “Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamənin təsdiq edilməsi barədə”, “Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında”, “Ədliyyə orqanlarında qulluq keçmə haqqında”, “Miqrasiya orqanlarında qulluq keçmə haqqında Əsasnamənin təsdiq edilməsi barədə”, “Fövqəladə hallar orqanlarında xidmətkeçmə haqqında”, “Hesablama Palatası haqqında”, “Media haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi və “Dövlət qulluqçusu üçün hakimiyyət səlahiyyətinin icrasına görə əlavə haqqın təyin edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununun ləğv edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

10. “Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Konstitusiya qanununun layihəsi (ikinci oxunuş).

11. “Yerin təki haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

12. “Avtomobil nəqliyyatı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

**Aşağıdakı məsələlər müzakirə edilmişdir:**

**Gündəlik haqqında.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Asif Əsgərov, Bəhruz Məhərrəmov, Bəxtiyar Əliyev, Aydın Mirzəzadə, Razi Nurullayev, Elman Nəsirov, Ceyhun Məmmədov, Vüqar Bayramov, Sahib Alıyev, Aydın Hüseynov

**Təklif:** Gündəlik qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.03 dəq.) |
|---|---|
| Lehinə | 111 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 112 |

Nəticə: Qəbul edildi

1. **“Azərbaycan Respublikası Milli Məclisinin parlamentlərarası əlaqələr üzrə işçi qruplarının rəhbərlərinin seçilməsi haqqında” Azərbaycan Respublikası Milli Məclisinin Qərarında dəyişikliklər edilməsi barədə.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Nigar Arpadarai, Qüdrət Həsənquliyev

**Təklif:** Qərar qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.41 dəq.) |
| Lehinə | 119 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 121 |

Nəticə: Qəbul edildi

**2. “Yol hərəkəti haqqında” və “Avtomobil yolları haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Kamal Cəfərov, Azər Badamov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.42 dəq.) |
| Lehinə | 118 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 119 |

Nəticə: Qəbul edildi

**3. “İnvestisiya fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Azər Əmiraslanov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.43 dəq.) |
| Lehinə | 116 |
| Əleyhinə | 2 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 119 |

Nəticə: Qəbul edildi

**4. "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əhliman Əmiraslanov, Müşfiq Məmmədli

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.49 dəq.) |
| Lehinə | 116 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 117 |

Nəticə: Qəbul edildi

**5. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əli Hüseynli, Qüdrət Həsənquliyev, Erkin Qədirli

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.51 dəq.) |
| Lehinə | 114 |
| Əleyhinə | 2 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 116 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci maddə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.01 dəq.) |
| Lehinə | 117 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 118 |

Nəticə: Qəbul edildi

**Təklif:** 2-ci maddə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.01 dəq.) |
| Lehinə | 115 |
| Əleyhinə | 2 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 117 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.02 dəq.) |
|---|---|
| Lehinə | 115 |
| Əleyhinə | 2 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 118 |

Nəticə: Qəbul edildi

**6. Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Bəhruz Məhərrəmov

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.03 dəq.) |
|---|---|
| Lehinə | 115 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 115 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.04 dəq.) |
|---|---|
| Lehinə | 116 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 117 |

Nəticə: Qəbul edildi

**Təklif:** 2-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.04 dəq.) |
|---|---|
| Lehinə | 114 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 115 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.04 dəq.) |
|---|---|
| Lehinə | 114 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 114 |
| Nəticə: Qəbul edildi | |

**7. Azərbaycan Respublikasının Mülki Məcəlləsində və “Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Nurlan Həsənov, Tahir Rzayev, Razi Nurullayev, Naqif Həmzəyev, Aydın Hüseynov, Siyavuş Novruzov

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.06 dəq.) |
|---|---|
| Lehinə | 110 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 111 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** 1-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.23 dəq.) |
|---|---|
| Lehinə | 111 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 111 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** 2-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.24 dəq.) |
|---|---|
| Lehinə | 112 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 113 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.24 dəq.) |
|---|---|
| Lehinə | 112 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |

| | |
|---|---|
| İştirak edir | 114 |

Nəticə: Qəbul edildi

**8. Azərbaycan Respublikasının Əmək Məcəlləsində, "Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında" və "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Musa Quliyev

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.26 dəq.) |
|---|---|
| Lehinə | 115 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 115 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci və 2-ci maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.27 dəq.) |
|---|---|
| Lehinə | 117 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 117 |

Nəticə: Qəbul edildi

**Təklif:** 3-cü və 4-cü maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.27 dəq.) |
|---|---|
| Lehinə | 114 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 114 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.27 dəq.) |
|---|---|
| Lehinə | 116 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 116 |

Nəticə: Qəbul edildi

**9. Azərbaycan Respublikasının Seçki Məcəlləsində, Azərbaycan Respublikasının Gömrük Məcəlləsində, “Hərbi qulluqçuların statusu haqqında”, “Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında”, “Polis haqqında”, “Gömrük orqanlarında xidmət haqqında” Əsasnamənin təsdiq edilməsi barədə”, “Dövlət qulluğu haqqında”, “Prokurorluq orqanlarında qulluq keçmə haqqında”, “Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamənin təsdiq edilməsi barədə”, “Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında”, “Ədliyyə orqanlarında qulluq keçmə haqqında”, “Miqrasiya orqanlarında qulluq keçmə haqqında Əsasnamənin təsdiq edilməsi barədə”, “Fövqəladə hallar orqanlarında xidmətkeçmə haqqında”, “Hesablama Palatası haqqında”, “Media haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi və “Dövlət qulluqçusu üçün hakimiyyət səlahiyyətinin icrasına görə əlavə haqqın təyin edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununun ləğv edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş)**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əli Hüseynli

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.29 dəq.) |
|---|---|
| Lehinə | 118 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 118 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1–6-cı maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.30 dəq.) |
|---|---|
| Lehinə | 118 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 118 |

Nəticə: Qəbul edildi

**Təklif:** 7–12-ci maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.31 dəq.) |
|---|---|
| Lehinə | 116 |
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 117 |

Nəticə: Qəbul edildi

**Təklif:** 13–17-ci maddələr qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.31 dəq.) |
| Lehinə | 115 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 116 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.32 dəq.) |
| Lehinə | 116 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 117 |

Nəticə: Qəbul edildi

**10. “Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Konstitusiya qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.30 dəq.) |
| Lehinə | 119 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 119 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci maddə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.32 dəq.) |
| Lehinə | 116 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 117 |

Nəticə: Qəbul edildi

**Təklif:** 2-ci maddə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.32 dəq.) |
| Lehinə | 115 |

| | |
|---|---|
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 117 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** 3-cü maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.33 dəq.) |
|---|---|
| Lehinə | 117 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 118 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.33 dəq.) |
|---|---|
| Lehinə | 113 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 116 |
| Nəticə: Qəbul edildi | |

**11. "Yerin təki haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Sadiq Qurbanov, Razi Nurullayev, Asif Əsgərov, Siyavuş Novruzov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.53 dəq.) |
|---|---|
| Lehinə | 113 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 114 |
| Nəticə: Qəbul edildi | |

**12. "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Azər Badamov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.00 dəq.) |
|---|---|
| Lehinə | 115 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 117 |

Nəticə: Qəbul edildi

**Azərbaycan Respublikası**
**Milli Məclisinin sədri** **Sahibə Qafarova**

***MİLLİ MƏCLİSİN İCLASI***

*24 fevral 2026-cı il. Saat 11*

*Azərbaycan Respublikası Milli Məclisinin sədri*

***Sahibə Qafarova** sədrlik edir*

**Sədrlik edən.** Xoş gördük, hörmətli deputatlar, hörmətli media nümayəndələri. Hörmətli həmkarlar, xahiş edirəm, qeydiyyatdan keçin. Buyurun.

| **Qeydiyyat** | (saat 11.01 dəq.) |
|---|---|
| İştirak edir | 118 |
| Yetərsay | 83 |

İclasa başlaya bilərik.

Hörmətli həmkarlar, bildiyiniz kimi, Birinci Qarabağ müharibəsinin gedişində erməni silahlı qüvvələri xalqımıza qarşı bir sıra soyqırımı cinayətləri törətmişlər. 1992-ci il fevralın 25-dən 26-a keçən gecə Xocalı şəhərində törədilmiş soyqırımı aktı isə bütün insanlığa qarşı ən ağır cinayətlərdən biridir. 613 nəfər dinc azərbaycanlı milli mənsubiyyətinə görə vəhşicəsinə qətlə yetirilmiş, 487 nəfər şikəst edilmiş, 1275 sakin girov götürülərək amansız işgəncələrə məruz qalmışdır. Girov götürülənlərdən 150 nəfərin, o cümlədən 68 qadının və 26 uşağın taleyi bu günə qədər məlum deyildir.

Hörmətli deputatlar, Azərbaycan Respublikasının Prezidenti müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Silahlı

Qüvvələrinin 44 günlük Vətən müharibəsində və antiterror əməliyyatında əldə etdiyi tarixi qələbələr sayəsində dövlətimizin ərazi bütövlüyü bərpa olunmuş və xalqımıza qarşı etnik təmizləmələrə və soyqırımı cinayətlərinə son qoyulmuşdur. Xocalı qurbanlarının qisası döyüş meydanında alınmışdır.

Hörmətli həmkarlar, xahiş edirəm, Xocalı şəhərində, digər yaşayış məntəqələrində erməni şovinizminin, vəhşiliyin qurbanı olmuş soydaşlarımızın xatirəsini bir dəqiqəlik sükutla yad edək.

Allah rəhmət etsin!

Hörmətli deputatlar, xahiş edirəm, indi gündəliyə münasibət bildirəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.03 dəq.) |
|---|---|
| Lehinə | 111 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 112 |
| Nəticə: Qəbul edildi | |

Gündəlik qəbul edildi.

30 dəqiqəmiz var. Çıxış etmək istəyən həmkarlarımız varsa, buyursunlar, yazılsınlar. 10 nəfərin siyahısı qalsın. Bildiyiniz kimi, çıxış üçün hər deputatın 3 dəqiqəsi var.

Asif Əsgərov. Asif müəllim, buyurun.

**Asif Əsgərov**. Təşəkkür edirəm. Çox hörmətli xanım sədr, hörmətli millət vəkilləri, media nümayəndələri, qonaqlar. XX əsrin sonlarında Azərbaycan xalqının üzləşdiyi ən ağır faciələrdən biri 1992-ci il fevralın 25-dən 26-na keçən gecə baş vermiş Xocalı soyqırımıdır. Bu hadisə təkcə bir

şəhərin deyil, bütöv bir xalqın yaddaşına silinməz iz salmış, insanlıq tarixində ən dəhşətli cinayətlərdən biridir. Xocalı faciəsi təkcə hərbi əməliyyat deyildi. Bu hadisə mülki əhaliyə qarşı törədilmiş məqsədli və sistemli soyqırımı cinayəti idi. Bu faciənin həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması Azərbaycan dövlətinin prinsipial mövqeyi sayəsində mümkün olmuşdur. Xocalı həqiqətlərinin beynəlxalq səviyyədə tanıdılması istiqamətində ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın xüsusi xidmətləri vardır. Onun təşəbbüsü və himayəsi ilə Heydər Əliyev Fondu tərəfindən həyata keçirilən genişmiqyaslı beynəlxalq fəaliyyət nəticəsində Xocalı faciəsi ilə bağlı həqiqətlər dünyanın müxtəlif ölkələrində ictimaiyyətə çatdırılmış, “Xocalıya ədalət!” beynəlxalq kampaniyası nəticəsində müxtəlif parlamentlərdə, beynəlxalq təşkilatlarda bu faciəyə hüquqi və siyasi qiymətin verilməsi istiqamətində mühüm addımlar atılmışdır.

Hörmətli həmkarlar, Xocalı soyqırımı həm də Azərbaycan xalqının dözümlülüyünü və iradəsini nümayiş etdirən bir tarix səhifəsidir. Tarix bir həqiqəti sübut etdi: illər sonra Azərbaycan öz sözünü dedi, öz gücünü göstərdi və qalib gəldi. Tarix göstərdi ki, Azərbaycan xalqı heç vaxt bu faciə qarşısında sınmadı. Əksinə, daha da gücləndi, daha da birləşdi. Dövlətimiz öz ərazi bütövlüyünü bərpa etdi, tarixi ədaləti təmin etdi və qalib dövlət kimi yeni reallıq yaratdı.

Bütün bu uğurların əsasında dövlətimizin başçısı cənab İlham Əliyevin müdrik, uzaqgörən və qətiyyətli siyasəti dayanır. Məhz onun rəhbərliyi ilə Azərbaycan həm döyüş meydanında, həm də siyasi müstəvidə böyük qələbələr əldə etdi. Onun rəhbərliyi ilə Azərbaycan təkcə torpaqlarını deyil, həm də milli qürurunu bərpa etdi. Ən önəmlisi isə odur ki, bu qələbədən sonra da Azərbaycan dünyaya sülh mesajı verdi, regionda sabitliyin və

əməkdaşlığın tərəfdarı olduğunu nümayiş etdirdi. Bu, güclü dövlətin, böyük liderin və yüksək mənəvi dəyərlərə malik xalqın mövqeyidir.

Azərbaycan xalqı hər zaman sülhsevər olub. Biz bölgədə sabitliyin, mehriban qonşuluğun və inkişafın tərəfdarıyıq. Amma hər kəs bilməlidir ki, həqiqi sülh yalnız ədalət bərpa olunduqda və tarixi həqiqətlər qəbul edildikdə mümkündür. Biz sülh istəyirik, amma Xocalı kimi yaralarımızı heç vaxt unutmuruq. Bu faciə bizim üçün yalnız tarix deyil, həm də milli yaddaşdır. Bu gün Xocalı haqqında danışmaq yalnız keçmişi xatırlamaq deyil, həm də ədalət və insanlıq dəyərlərini müdafiə etmək deməkdir.

Eyni zamanda, qeyd etmək istəyirəm ki, məhkəmə proseslərində Xocalı faciəsini törədən şəxslərə qarşı hökm oxunması, uzun illərdən sonra ədalətin bərpasının mühüm nümunəsidir. Bu qərar həm Azərbaycan xalqının hüquqi haqqının qorunduğunu göstərir, həm də tarix qarşısında ədalətin təmin olunmasına xidmət edir.

Azərbaycan dövləti bundan sonra da öz güclü siyasəti, qətiyyətli mövqeyi və sülhsevər prinsipləri ilə həm regionda, həm də dünyada ədalətin və sabitliyin təmin olunmasına öz töhfəsini verəcəkdir.

Xocalı şəhidlərinin əziz xatirəsini dərin ehtiramla yad edir, Allahdan onlara rəhmət diləyirəm. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Çox sağ olun.

Hörmətli həmkarlar, 10 nəfər qalandan sonra heç kim yazılmasın, siyahıdan çıxarılacaq. Yazılmışdılar, artıq yoxdur.

Bəhruz Məhərrəmov. Buyurun.

**Bəhruz Məhərrəmov**. Hörmətli sədr, əziz həmkarlar, bu gün Rusiya–Ukrayna müharibəsinin başlamasından 4 il ötür. Ötən dövr ərzində hər iki tərəfdən 2 milyona yaxın itki var. Düzdür, demək olar ki, bütün dünya Ukraynaya dəstək verir. Amma müharibə heç bir nəticəyə səbəb olmadan

bütün dəhşəti ilə davam edir. Orta hesabla hər gün 700 nəfər ölür, 1200 civarında insan yaralanır və 100-ə yaxın insan itkin düşür.

Azərbaycan başqa dövlətlərin müstəqilliyinə qəsd və beynəlxalq münaqişələrin həlli üsulu kimi müharibəni konstitusion qaydada rədd edir. Təbii ki, biz baş verənlərdən çox narahatıq. Amma eyni zamanda, bu münaqişə hələ də cənab İlham Əliyevin liderliyində Azərbaycanın yaratdığı reallıqları dərk etməyənlər üçün bir dərs olmalıdır.

Bizim durumumuz Ukraynadan qat-qat ağır olub. Bu gün Ukraynanın ərazi bütövlüyünü tanıyan, ona hərbi-siyasi və maliyyə dəstəyi verən, məcburi köçkünləri ilə bağlı beynəlxalq proqramları işə salan o güclərin, demək olar ki, böyük əksəriyyəti Azərbaycana münasibətdə işğal-təcavüz faktorunu, dünya tarixinin ən qanlı soyqırımı cinayətlərindən olan Xocalını görməzdən gəlirdi. Bu gün ard-arda qətnamələr, sanksiyalar qəbul edən subyektlər Ermənistanın Azərbaycana təcavüzü qarşısında susurdular. Azərbaycanı işğalla barışdırmaq, münaqişəni donduraraq hər zaman yenidən alovlandırmaq imkanını öz əllərində saxlamaq istəyirdilər. İndi cənab İlham Əliyev onları fakt qarşısında qoyaraq sülh tərəfdarına çevirib. Əslində isə, qələbəmizə qədər heç kim bu bölgədə sülh istəmirdi. Amma cənab İlham Əliyev vəziyyəti köklü formada dəyişdi.

Biz faktiki olaraq, dünyanın ən azı yarısının təcavüzkarı dəstəklədiyi bir müharibəni məhz cənab İlham Əliyevin sayəsində 44 günə başa vurduq. Bütün dünya birləşib, 4 ildir, Ukraynada silahlar susmur. Prezident İlham Əliyev isə 200 illik konsepsiyaya cəmi 44 günə son qoydu. Bu gün Azərbaycan xalqı qalibdir, sülh və sabitlik şəraitində yaşayır. Bundan daha gözəl nemət ola bilməz. Şimal da, Cənub da od içindədir, amma Azərbaycan vətəndaşının müharibə, təhlükəsizlik, sabitlik problemi yoxdur. Sülh və sabitlik şəraitində isə hər şeyə nail olmaq olar. Dünyanın elə bir

coğrafiyası yoxdur ki, sosial problemi olmasın, amma bizim perspektivdə isə sosial problem müvəqqətidir. Təsəvvür edin, Qarabağın və Şərqi Zəngəzurun quruculuq və bərpasına ayrılan milyardları orada işlər başa çatdıqdan sonra sosial problemlərə yönəldirik. Görün, bizi hansı perspektiv gözləyir. Bu gün anti-Azərbaycan dairələrini də narahat edən budur ki, Azərbaycanda mövcud sosial problemlər həllini tapmasın, çünki onların insanlara təsir etməsi üçün son şansları elə bu sosial problemlərdir. Ona görə də xarici xüsusi xidmət orqanlarının tezisləri əsasında, xüsusən şimal küləyinin təsirində ictimai fikri çaşdırmaq üçün bütün güclərini səfərbər ediblər. Azərbaycan xalqı da çox yaxşı dərk edir ki, pulları alıb dövlət əleyhinə fəaliyyət göstərən partiya funksionerinin xalqın adını çəkmək haqqı itib, yaxud anti-Azərbaycan təlimatı alıb qələmini ona görə ayarlayan jurnalist azad söz təmsilçisi ola bilməz.

Ən böyük azadlıq, təmin olunması ən vacib haqq məhz möhkəm sülh və dayanıqlı sabitlikdir ki, buna da cənab İlham Əliyev nail olub.

Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Bəxtiyar Əliyev. Buyurun.

**Bəxtiyar Əliyev**. Hörmətli xanım sədr, hörmətli deputatlar, bu gün biz bəşəriyyətə qarşı XX əsrdə törədilmiş ən böyük cinayətin – Xocalı soyqırımının 34-cü ildönümü ərəfəsindəyik. Əlbəttə, belə bir cinayətin törədilməsi o vaxtkı SSRİ rəhbərliyinin və dünya ermənilərinin birgə hazırladığı məqsədyönlü bir planın tərkib hissəsi idi. Çünki əsrlər boyu azərbaycanlılar öz dədə-baba torpaqlarından qovulmuş, etnik təmizləməyə, eyni zamanda da, bütün dövrlərdə soyqırımına məruz qalmışlar. 1987-ci ilin payızından – noyabr və dekabr aylarından Qafan rayonundan azərbaycanlıların kütləvi şəkildə qovulması başlandı. Qışda,

qarlı günlərdə, soyuqda uşaqlar, qocalar ayaqyalın o dağlardan keçərək Şuşaya, Xocalıya pənah gətirdilər. Bununla da yeni bir soyqırımına sanki bir siqnal verildi. Bütün dünya sanki azərbaycanlılara qarşı birləşmişdi, ermənilərin bu vəhşiliklərinə göz yumurdular.

Ulu Öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə yenidən siyasi hakimiyyətə qayıtması bu böyük fəlakətlərin qarşısını aldı. Xocalı soyqırımına hüquqi, siyasi qiymət verildi. Azərbaycanın haqq işi uğrunda ardıcıl siyasətin həyata keçirilməsinə başlanıldı və torpaqlarımızın bir qarışının da düşmənə verilməyəcəyi ilə bağlı sərt, kəskin mövqe və bəyanatlar dünyaya çatdırıldı. Bu ardıcıl siyasətin nəticəsində müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə müzəffər Azərbaycan Ordusu torpaqlarımızı Ermənistanın işğalından azad etdi. Xanım sədr, Sizin də qeyd etdiyiniz kimi, döyüş meydanında mərd-mərdanə döyüşərək bütün şəhidlərimizin, o cümlədən də Xocalı soyqırımına məruz qalmış vətəndaşlarımızın qisası alındı. Torpaqlarımız düşməndən azad edildi, Azərbaycan öz suverenliyini, ərazi bütövlüyünü bərpa etdi. Bu isə həmin şəhidlərimizin ruhuna verilən ən böyük dəyər idi.

Bu gün Azərbaycanın bu uğurlarını həzm etməyən, içimizdən olanlar da və gedib o xarici dövlətlərin ayrı-ayrı dairələrinin sifarişi ilə Azərbaycana qarşı təxribatlar törədənlər də, çirkablar atanlar da bilməlidirlər ki, Azərbaycan xalqı bu suverenlikdən, bu müstəqillik yolundan dönməyəcəkdir, öz müstəqilliyini və suverenliyini əbədi və dönməz etmişdir. Bundan sonra da Azərbaycan xalqı öz müzəffər Ali Baş Komandanının, Prezidentinin ətrafında sıx birləşəcəkdir, azadlıq və müstəqillik yolunda inamla irəliləyəcəkdir.

Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Aydın Mirzəzadə. Buyurun.

**Aydın Mirzəzadə**. Təşəkkür edirəm, xanım sədr. Yada salım ki, bu gün Su çərşənbəsidir. Novruz bayramı ərəfəsi 4 çərşənbə axşamının birincisidir. Bu münasibətlə hər kəsi təbrik edirəm. Qoy, həyatımız su kimi təmiz, su kimi axarlı olsun.

Eyni zamanda, iki gündən sonra Xocalı faciəsinin növbəti ildönümüdür. Bu bizim ağrımızdır, bu bizim tariximizin çox qanlı səhifələrindən biridir. 100 illər keçsə də, heç bir zaman Xocalı faciəsinin ağrısı Azərbaycan xalqının qəlbindən, yaddaşından silinməyəcək. Xocalı faciəsi təsadüfi olmamışdır, məqsədyönlü surətdə, azərbaycanlıları qorxutmaq üçün, onları öz suverenliyindən, torpaq istəyindən çəkindirmək üçün törədilmişdi. Bu, birinci dəfə deyildi. 1918-ci ilin mart qırğınlarını yada salaq. 1967-ci ildə Xankəndinin mərkəzində erməni millətçilərinin üç azərbaycanlını maşının içində diri-diri yandırmaqlarını yada salaq. Bu hadisələr təzə başlayanda, 1988-ci ildə iki nəfər gəncimizin qətlə yetirilməsini yada salaq. 20 yanvarı yada salaq.

Xocalı faciəsindən sonra da ermənilərin tutduğu ərazilərdə kiçik və yaxud böyük formada Xocalı faciələri yenə baş vermişdir. Çünki müstəqil dövlətimiz yox idi, liderimiz yox idi və məqamdan istifadə edərək erməni millətçiləri və onların arxasında duranlar Azərbaycanı diz üstə çökdürməyə, qorxutmağa çalışırdılar. Amma etdiklərinin əksi alındı. Azərbaycan xalqı qorxmadı, Azərbaycan xalqı çəkinmədi, itkisini yaddaşına yazaraq irəlilədi və 2020-ci il noyabrın 8-də qələbəsini çaldı. 1 günlük antiterror əməliyyatında torpaqlarının bütövlüyünü təmin etdi. Ona görə təmin etdi ki, yolumuzun, dövlətimizin əsasını Ulu Öndər Heydər Əliyev qoydu. Ona görə təmin etdi ki, bu dövlətin daha möhkəmləndirilməsi üçün cənab

Prezidentimiz çox ciddi fəaliyyət apardı. Hörmətli Birinci vitse-prezidentimiz bu dövlətçiliyimizə bir güc verdi.

Bu gün dünya Azərbaycandan, onun gücündən, öz suverenliyini qoruya bilməsindən, dünya birliyinə verdiyi töhfədən danışır. Bir tərəfdən, biz tariximizin o ağır, qanlı səhifələrini unutmamalıyıq, digər tərəfdən isə, bunlar bizi çəkindirməməli, əksinə, daha da möhkəm etməlidir. Bu gün də Azərbaycana qarşı Xocalı soyqırımı törətmək istəyənlər var. Bu gün də Azərbaycanın içərisində çaxnaşma yaratmaq istəyənlər var. Amma müstəqil dövlətimiz, xalq, dövlət rəhbərliyi, Azərbaycan xalqının öz müstəqilliyinə bağlılığı, rəhbərimizin düzgün siyasəti Azərbaycanı daha da möhkəm edir. Nə qədər ki Azərbaycan var, öz müstəqilliyini qoruyacaq. Nə qədər ki Azərbaycan var, Xocalı faciələrini yadda saxlayacağıq və bundan sonra onların baş verməməsi üçün xalqımız həmişə fəaliyyət göstərəcək.

**Sədrlik edən.** Sağ olun.

Razi Nurullayev. Buyurun.

**Razi Nurullayev.** Hörmətli xanım sədr, hörmətli deputatlar və media nümayəndələri. İşğaldan azad olunmuş ərazilərdə vacib işlər görülür, evlər tikilir, yollar, məktəblər,  xəstəxanalar salınır, amma dövlətin hər şeyi təkbaşına etməsi, bütün maliyyə yükünü üzərinə götürməsi uzunmüddətli həll deyil. Bu, nə büdcə üçün dayanıqlıdır, nə də insanların orada kök salması üçün doğru modeldir. Bu gün biz köçkünlər üçün evi də, kommunal xərclər sistemini də, infrastrukturu da dövlət hesabına qururuq. Amma nəticə nədir? Köçən insanların bir hissəsi bir müddət sonra geri qayıdır. Səbəb sadədir: iş yeri azdır, dolanışıq zəifdir, iqtisadi həyat, hələ ki, formalaşmayıb. Məncə, dövlətin əsas rolu ev tikmək deyil, şərait yaratmaq olmalıdır. Dövlət yol çəksin, su, işıq, qaz, internet, məktəb, xəstəxana yaratsın. Çox gözəl. Amma evlərin tikintisi mərhələli şəkildə dövlətin

nəzarəti və güzəştli mexanizmləri ilə vətəndaşın özünə verilsin. Köçkün evini özü tikəndə o torpağa daha çox bağlanır. Tikə-tikə ora öyrəşir, ətrafı tanıyır, dolanışıq yolu axtarır, qonşuluq münasibətləri formalaşdırır. Bu, psixoloji və sosial baxımdan daha sağlam modeldir. Üstəlik, bu yanaşma dövlət büdcəsi üçün də qat-qat ucuz başa gəlir. Vətəndaş öz evini indiki qiymətlərdən iki dəfə daha ucuz məbləğə tikəcək.

İkinci. Qarabağı yalnız dövlət layihələri üzərindən bərpa etmək mümkün deyil. Bu bölgə dövlətin nəzarəti altında, amma real şəkildə özəl sektora da, bütövlükdə, açılmalıdır. Kiçik və orta sahibkarlıq üçün daha münasib və süründürməçilikdən uzaq şərait, uzunmüddətli kreditlər torpaq icarəsinin daha sadələşdirilmiş mexanizmləri tətbiq olunmalıdır. Orada fabrik, emal müəssisəsi, turizm obyektləri, xidmət sahələri yalnız sənaye zonalarında deyil, bütövlükdə, hər bir yerdə yaradılması asanlaşdırılmalıdır.

Üçüncü. Kənd konsepsiyası. Biz kəndi hamı üçün eyni model kimi planlaşdırırıq. Amma reallıq başqa cürdür. Əgər bir ailə kənddə mal-qara saxlamaq istəmirsə, təsərrüfatla məşğul olmayacaqsa, onu məcbur klassik kənd modelinə köçürməyin mənası yoxdur. Belə insanlar üçün şəhərçik və qəsəbə tipli yaşayış məntəqələri formalaşdırılsa, yaxşı olar. Xidmət sektoru, kiçik biznes, emal, turizm üzərində qurulan yaşayış mühiti yaradılmalıdır. Kəndlər isə funksional zonalara bölünə bilər. Bir hissəsi mal-qara saxlayan, kənd təsərrüfatı ilə məşğul olan ailələr üçün, digər hissəsi isə bu həyat tərzinə uyğun olmayan, amma kənd mühitində yaşamaq istəyən insanlar üçün. Hamını eyni qəlibə salmaqla uğur əldə edə bilmərik. Biz insanı deyil, modeli dəyişməliyik.

Təşəkkür edirəm, xanım sədr.

**Sədrlik edən.** Elman Nəsirov. Buyurun.

**Elman Nəsirov**. Hörmətli xanım sədr, hörmətli həmkarlar, hörmətli media nümayəndələri. Bu gün biz böyük fəxarət hissi ilə qeyd edirik ki, Azərbaycanda səfərbər olunmuş cəmiyyət var. Azərbaycanda vətəndaş həmrəyliyi hökm sürür və nəzərdən qaçırmayaq ki, biz vətəndaş müharibəsindən vətəndaş həmrəyliyinə qədər böyük və şərəfli bir yol keçmiş millətik, dövlətik. Biz həm də fərqindəyik ki, Azərbaycan dövləti, onun ali siyasi rəhbərliyi, şəxsən cənab İlham Əliyev – dövlətimizin başçısı müstəqil, milli maraqlara söykənən siyasət həyata keçirir. Onun öz sözləridir ki, ən rahatı böyük bir dövlətin qanadları arasına sığınıb siyasətini davam etdirmək idi, amma biz bu yolu seçməmişik, biz müstəqillik yolunu seçmişik, biz çətin, lakin şərəfli yolu seçmişik və bu yolda da böyük uğurlara imza atırıq. İmzalarımızın miqyası böyüdükcə Azərbaycana qarşı təzyiqlərin də miqyası genişlənir. Biz bunu dəfələrlə görmüşük: Birinci Avropa Oyunlarında, Dördüncü İslam Həmrəyliyi Oyunlarında. Bundan savayı, biz buna ən çox COP29 tədbirində şahidlik etdik. Hətta iş o yerə gəlib çatdı ki, cənab Prezident söylədi, bizim bədxahlarımıza bir bəd xəbər çatdırmaq istəyirəm. 196 dövlətdən 80-dən artıq dövlət və hökumət başçısı, 72 min insan Bakıya gəlib və bu tədbiri izləyəcək.

İndi də analoji vəziyyətdir. Bu gün Azərbaycan dövləti, onun rəhbəri dünyanın yeni nizamının formalaşmasında əsas fiqurlardan biridir. Bu gün cənab Prezident faktiki olaraq yeni dünya nizamının formalaşması prosesində çox ciddi bir aktordur. Bir Sülh Şurası formalaşıb və o, dünyanın yeni beynəlxalq platforması kimi çıxış edir. Bu vəziyyətdə də Azərbaycan, sadəcə, subyekt deyil, orada aktordur, öz mövqeyi ilə çıxış edir. Görünür ki, bu reallıq bizim əleyhdarlarımızın yuxusuna haram qatıb.

Son hadisə. Cənab Prezident Vaşinqtonda məlum toplantıdan otelə qayıdarkən onun kortejinə olan hücumun təşkilatçıları da, icraçıları da

bəllidir. Bunu məqsədyönlü, planlı şəkildə ediblər. Bu vəziyyətdə Azərbaycan Prezidentinin təhlükəsizlik xidməti, Amerika Birləşmiş Ştatlar polisinin addımları da adekvatdır. Belə də olmalıdır. Hər şey qanun çərçivəsindədir.

Əleyhdarlarımıza söyləyirəm ki, 2 gün bundan öncə ABŞ Prezidentinin Florida ştatındakı iqamətgahına bir nəfər basqın etmək istəyib və yerindəcə güllələnib. Hesab edirəm, bundan sonra xüsusi şərhə ehtiyac yoxdur.

Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Ceyhun Məmmədov. Buyurun.

**Ceyhun Məmmədov.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar, məlum olduğu kimi, həm Birinci, həm də İkinci Qarabağ savaşı dönəmində ermənilər Azərbaycan xalqının başına bir çox müsibətlər gətirdilər, vandalizm aktları törətdilər. Eyni cinayətlər 1905-ci və 1918-ci illərdə də ermənilər tərəfindən törədilmişdi.

Heç şübhəsiz ki, Xocalı faciəsi dünyada baş verən bir çox soyqırımı hadisələrindən öz qəddarlığı, zorakılığı və amansızlığı ilə seçilir. Azərbaycan xalqı bu faciəni heç zaman unutmayacaq. Məhz Ulu Öndər Heydər Əliyev hakimiyyətə gəldikdən sonra bu soyqırımına hüquqi qiymət verildi, faciənin tanıdılması istiqamətində çox mühüm addımlar atıldı. Ən önəmlisi, yeni soyqırımların baş verməməsi üçün  Azərbaycan bir sıra mühüm addımlar atdı.

Bu, bir reallıqdır ki, Ulu Öndər Heydər Əliyevdən başqa heç kim Azərbaycanı  bu çətin dövrdən çıxara bilməzdi və eyni zamanda, Prezident İlham Əliyevdən başqa heç kim Azərbaycana bu Zəfəri yaşada bilməzdi. Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan sülh quruculuğu prosesini uğurla irəli aparır. Eyni zamanda, xalqımızın başına gətirilən

faciələrin unudulmaması üçün davamlı olaraq addımlar atır. Azərbaycanın müxtəlif bölgələrində, xüsusi ilə işğaldan azad edilmiş ərazilərdə memorial komplekslərin inşası bunu bir daha təsdiq edir.

Birmənalı olaraq müharibə dövründə törədilən bütün cinayətlərə görə Ermənistanın o dövrdə hakimiyyətdə olan bütün siyasi və hərbi rəhbərləri məsuliyyət daşıyırlar. Onların bir qismi artıq cəzasını alıb. Bir müddət bundan əvvəl Azərbaycan məhkəmələri onlar haqqında beynəlxalq hüquqa əsasən qərarlar qəbul etdilər. Heç kimin şübhəsi olmasın ki, bu cinayətdə əli olan digər cinayətkarlar da mütləq öz cəzalarını alacaqlar.

Onu da qeyd edək ki, Ermənistan bu kimi əməllərlə Azərbaycan xalqının gözünü qorxutmağa, onun döyüş əzmini qırmağa çalışırdı. Ancaq bunun əksi oldu, Azərbaycan xalqı bu cinayətləri, eləcə də torpaqlarının işğal altında qalması ilə barışmayaraq öz qələbəsini təmin etdi və Xocalıda törədilənlərin qisasını aldı, şanlı tarix yazdı.

Burada bir reallıq var ki, əgər Ermənistan vaxtında cəzalandırılsaydı, bu qədər cinayət baş verməzdi və Ermənistan bu qədər azərbaycanlını qətlə yetirməzdi. Bu gün reallıq ondan ibarətdir ki, cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan torpaqları azad edilib, yeni bir reallıq yaranıb. Revanşizmə meyil edənlər anlamalıdırlar ki, yenidən baş qaldırsalar, ən kəskin reaksiyanı görəcəklər.

**Sədrlik edən.** Sağ olun.

Vüqar Bayramov. Buyurun.

**Vüqar Bayramov.** Çox təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri, fevralın 26-da Xocalı soyqırımının 34-cü ildönümüdür. Ulu Öndər Xocalı soyqırımının 10-cu ildönümü ilə əlaqədar Azərbaycan xalqına 2002-ci il 25 fevral tarixli müraciətində Xocalı faciəsinin 200 ilə yaxın bir müddətdə erməni şovinist-millətçiləri tərəfindən azərbaycanlılara qarşı

müntəzəm olaraq həyata keçirilən etnik təmizləmə, soyqırımı siyasətinin davamı və ən qanlı səhifəsi olduğunu qeyd etmişdir. Azərbaycan xalqı və dövləti Xocalı faciəsini heç vaxt unutmur və unutmayacaqdır.

Bu gün isə Xocalı rayonunda yeni bir səhifə açılır. Azərbaycan Prezidentinin rəhbərliyi ilə işğaldan azad olunmuş ərazilərimiz yenidən qurulur və bərpa olunur. Artıq Xocalı şəhəri daxil olmaqla Xocalı rayonunun 7 kəndi keçmiş məcburi köçkünlərini qəbul edib və Xocalı rayonunda artıq 4 mindən çox sakin məskunlaşıb. Xocalı rayonu daxil olmaqla, uzun müddət işğal altında qalmış torpaqlarımızın bərpası və yenidən qurulması həmin ərazilərimizin intensiv şəkildə məskunlaşmasına imkan yaradıb. Hazırda 75 mindən artıq vətəndaşımızın yaşadığı Qarabağda və Şərqi Zəngəzurda bu ilin sonunadək daha 80 min nəfərin yaşayacağı və işləyəcəyi gözlənilir. Bu isə ondan xəbər verir ki, 2026-cı ilin sonunadək Qarabağda və Şərqi Zəngəzurda yaşayan və çalışan vətəndaşlarımızın sayı 150 mindən artıq olacaq.

Eyni zamanda, işğaldan azad edilmiş ərazilərimizin bərpası və yenidən qurulması dövlət büdcəsindən bu istiqamətə daha çox vəsaitin ayrılmasına imkan yaradıb. Mən Qarabağı təmsil edən bir millət vəkili olaraq Qarabağın və Şərqi Zəngəzurun bərpasında daha sistemli şəkildə siyasətin həyata keçirildiyini xüsusi qeyd etmək istərdim. Burada Qarabağın bərpası ilə bağlı qeydlər oldu. Mən qeyd etmək istərdim ki, Qarabağın və Şərqi Zəngəzurun bərpasını burada müşahidə edirik. Çünki yalnız dövlət büdcəsindən Qarabağın və Şərqi Zəngəzurun bərpasına indiyədək 23 milyard manata yaxın vəsait ayrılıb. 2026-cı ildə bu istiqamətə ayrılan vəsaitin həcmi əlavə olaraq 3,7 milyard manat olacaq. Bu isə o deməkdir ki, 2026-cı il daxil olmaqla, Qarabağın və Şərqi Zəngəzurun bərpasına ayrılan vəsaitin həcmi 26 milyard manatdan artıq olacaq. Bu, Azərbaycanın gücünü, eyni

zamanda, daxili maliyyə mənbələri hesabına işğaldan azad edilmiş ərazilərimizin bərpasını özündə ehtiva edir. Xüsusən nəzərə almaq lazımdır ki, işğaldan azad edilmiş ərazilərimizin bərpası baş planlara uyğun olaraq həyata keçirilir. Bu baxımdan, sistemli şəhərsalma, eyni zamanda, yaşayış məntəqələrinin formalaşması bu kontekstdə çox vacibdir. Qarabağın və Şərqi Zəngəzurun, o cümlədən Xocalı rayonunun bərpası sistemli şəkildə həyata keçirilir. Bu isə ondan xəbər verir ki, biz növbəti dövrlərdə daha çox vətəndaşımızın məskunlaşmasını müşahidə edəcəyik.

Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Vüqar müəllim. Bəli, Sizinlə tamamilə razıyam ki, bu gün Qarabağda dövlət tərəfindən qurulmuş bu model çox uğurludur və öz yerini tapır. Heç kim Qarabağa zorla köçürülmür. Çox sağ olun.

Sahib Alıyev. Buyurun.

**Sahib Alıyev.** Hörmətli xanım sədr, dəyərli həmkarlar, bu gün Rusiyanın Ukraynaya qarşı “xüsusi hərbi əməliyyat” adlandırdığı və adlandırmaqda da davam etdiyi savaşdan 4 il ötür. Bu savaş Xocalı soyqırımının törədilməsinin 30-cu ildönümündə baş verdi. Bu soyqırımının törədilməsində 366-cı alayın iştirakı təsdiqlənmiş faktdır. Maraqlıdır, Xocalı soyqırımı baş verərkən özlərini “kollektiv Qərb” adlandıranlar prinsipiallıq göstərərək ədalətin, beynəlxalq hüququn yanında yer alsaydılar, Ukrayna xalqı indiki reallıqla üzləşərdimi? 366-cı alaydakıların yolu ilə gedənlər Buçada Xocalıdakına bənzər qırğın törədə bilərdilərmi? Əlbəttə, yox.

Ümid edirəm ki, Xocalı soyqırımını törədənlərdən sağ qalanların hamısı Qarabağdakı “miatsumçu” rejimin artıq haqlarında hökm çıxarılan təmsilçiləri kimi bir gün tutulub Bakıya gətiriləcəklər. Ermənistan özü də, əslində, bunda maraqlı olmalıdır. Bəli, bunun əleyhinə çıxanlar,

həbsdəkilərin isə buraxılmasını istəyənlər də var. Bunun da nə üçün edildiyini biz yaxşı bilirik. Onu da yaxşı bilirik ki, heç vaxt öz sözünü deməyən Zatulin kimi ünsürlər onların içərisində nədən daha çox Ruben Vardanyanın adını çəkir.

Vardanyan Qarabağda peyda olan zaman doğma bacısının ağlayaraq yaxınlarına onun ora öz xoşu ilə getmədiyini, göndərildiyini dediyi haqda səs yazısı var. Vardanyanın Qarabağa göndərilənədək hansı əməllərdən çıxdığı da heç kimə sirr deyil. Konstantin Zatulin Rusiya dövlət kanalından Azərbaycanın üstünə qışqırdılarkən bəlkə ondan qorxurlar ki, hələlik, bizim şairlərin qəzəlini səsləndirən Ruben Vardanyan bir gün onların özəlini də, yəni milyardlarca pullarını necə leqallaşdırdığını da dilə gətirə bilər. Ümumiyyətlə, Azərbaycana qarşı bu hibrid savaş nə üçündür, niyə aparılır?

Cənab Prezidentin Münxendə vurğuladığı kimi, koordinatları verildiyi halda belə, bizim Ukraynadakı obyektlərimizə, əsasən də, diplomatik təmsilçiliyimizə nədən ard-arda zərbə endirilir? Ukraynaya humanitar yardım etdiyimizə görəmi? Axı, ən yüksək səviyyədə “ukraynalılarla biz eyni millətik” deyən siz idiniz? Siz öz millətinizdən sandığınızı qışın oğlan çağında istisiz və işıqsız qoyduğunuz halda, Azərbaycan generatorlar göndərir, yanacaqla təmin edir ki, onlar donmasınlar. Bu sizin Ermənistana, oradan da Qarabağa göndərdiyiniz milyardlarca dollarlıq silah-sursat deyil ki? Biz o dövlət deyilik ki, İkinci Qarabağ savaşı zamanı sizin kimi Ermənistana silah göndərib, adını da “tikinti materialı” qoyaq.

Sonda mən soruşmaq istərdim ki, bir halda ölkəmizə qarşı bu cür hibrid hücumlar edilir və buna hətta Rusiya Dumasının MDB ölkələri üzrə əlaqələr komitəsi sədrinin müavinini də qoşurlar, onda biz o quruma və oradakı üzvlüyümüzə necə yanaşmalıyıq?

Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Aydın Hüseynov. Buyurun.

**Aydın Hüseynov.** Hörmətli xanım sədr, hörmətli millət vəkilləri, məlumdur ki, Xocalı faciəsindən artıq 34 il keçir. Xocalı faciəsi Azərbaycan xalqının, eləcə də bəşəriyyətin XX əsrdə üzləşdiyi ən ağır və ən dəhşətli insanlıq cinayətidir. Bu faciə miqyasına və mülki əhaliyə qarşı törədilən vəhşiliyə görə tarixdə  Holokost kimi tanınan soyqırımı ilə müqayisə olunur. Çünki Xocalıda insanlar yalnız azərbaycanlı olduğuna görə, milli və etnik mənsubiyyətinə görə qətlə yetirildilər. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə yüzlərcə dinc sakin – qadınlar, uşaqlar və qocalar xüsusi qəddarlıqla öldürüldülər. Minlərcə insan ağır fiziki və mənəvi isgəncələrə məruz qaldı.

Ümummilli Lider Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra Xocalı faciəsinə ilk dəfə siyasi və hüquqi qiymət verildi. 1994-cü ildə Milli Məclis Xocalı hadisəsini rəsmi olaraq soyqırımı kimi tanıdı. Bu siyasət bu gün də ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyev tərəfindən ardıcıl şəkildə davam etdirilir.

44 günlük Vətən müharibəsində əldə olunan tarixi qələbə nəticəsində Xocalı şəhidlərinin qanı yerdə qalmadı. 2023-cü ildə Xocalı şəhəri tam azad edildi və Prezident İlham Əliyev Xocalıda Azərbaycan Bayrağını ucaltdı. Bu, tarixi ədalətin bərpası idi.

Bu gün Xocalı yenidən qurulur, həyata qayıdır. Artıq yüzlərcə ailə doğma torpaqlarına köçürülür. Yeni evlər, infrastruktur və istehsal müəssisələri yaradılır. 2025-ci ildə "Xocalı soyqırımı memorial kompleksinin yaradılması haqqında" sərəncamın imzalanması faciə qurbanlarının xatirəsini əbədi yaşayacağına xidmət edir.

Xocalı həqiqətlərinin dünyaya çatdırılmasında Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın  təşəbbüsü ilə həyata keçirilən

“Xocalıya ədalət!” beynəlxalq kampaniyası xüsusi rol oynayır. Bu kampaniya artıq onlarca ölkədə milyonlarca insanı məlumatlandıraraq Xocalı soyqırımının tanınmasına ciddi töhfə verib.

Bu gün bizim əsas vəzifəmiz Xocalını yalnız anmaq deyil, həqiqətləri dünyaya çatdırmaq, ədalətin bərpasına nail olmaq və gələcək nəsillərin bu faciəni heç vaxt unutmamasını təmin etməkdir. Xocalı bizim tariximizdir, ağrımızdır və eyni zamanda, bərpa olunmuş ədalətin simvoludur.

Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Hörmətli həmkarlar, mən hamıya təşəkkür edirəm.

Gündəliyin məsələlərinə keçirik. Bizim 1-ci məsələmiz “Azərbaycan Respublikası Milli Məclisinin parlamentlərarası əlaqələr üzrə işçi qruplarının rəhbərlərinin seçilməsi haqqında” Azərbaycan Respublikası Milli Məclisinin Qərarında dəyişikliklər edilməsi ilə bağlıdır. Məsələyə dair məlumat vermək üçün Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsi sədrinin müavini hörmətli Nigar xanım Arpadaraiyə söz vermək istəyirəm. Nigar xanım, buyurun.

**Nigar Arpadarai,** *Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsi sədrinin müavini.*

Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli həmkarlar, mən də hər kəsi salamlayıram və Xocalı soyqırımında həyatını itirmiş soydaşlarımıza Allahdan rəhmət diləyirəm. Bu gün çox xoşbəxtik ki, Qarabağımıza qayıtdıq, Xocalıya qayıtdıq və başıuca qayıtdıq.

Hörmətli həmkarlar, təqdim olunan qanun layihəsi parlamentlərarası əlaqələr üzrə işçi qruplarının rəhbərlərinin seçilməsi ilə bağlıdır. Xatırlatmaq istərdim ki, parlamentlərarası əlaqələr üzrə işçi qrupları dövlətlərin qanunverici orqanları arasında institusional və davamlı dialoq mexanizmini

yaradır. Onlar diplomatiyanın əsas qolu olan parlament diplomatiyasının əsas alətlərindən hesab olunurlar.

Hörmətli həmkarlar, bu gün 5 ölkə ilə işçi qrupunun rəhbərlərinin seçilməsi haqqında qanun layihəsinə baxırıq. Burada ölkələr və rəhbərlər olaraq Azərbaycan-Keniya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Ramid Zakir olğu Namazov, Azərbaycan-Qambiya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Eyvaz Daşdəmir oğlu Qurbanov, Azərbaycan-Laos parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Gülşən Məmədəli qızı Paşayeva, Azərbaycan-Maldiv parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Azər Kərim oğlu Allahverənov və Azərbaycan–Nepal parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Vasif Vaqif oğlu Qafarov seçilmişdir.

Qeyd edim ki, bizim bu ölkələrlə əlaqələrimiz diplomatik və beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq səviyyəsindədir. Bu ölkələrlə əlaqələr çoxtərəfli platformalar və qarşılıqlı dəstək üzərində qurulubdur. Ona görə əminik ki, həmkarlarımızın və bu işçi qruplarının fəaliyyəti sayəsində parlament diplomatiyasına öz töhfəmizi vermiş olacağıq.

Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun, Nigar xanım.

Müzakirəyə keçirik. Qüdrət Həsənquliyev. Buyurun, Qüdrət müəllim.

**Qüdrət Həsənquliyev.** Təşəkkür edirəm. Hörmətli sədr, həmkarlar, media nümayəndələri. Mən ilk öncə Xocalı soyqırımının qurbanlarına, şəhidlərimizə Allahdan rəhmət diləyirəm.

Eyni zamanda, su çərşənbəsi münasibəti ilə sizləri və xalqımızı təbrik edirəm.

Hörmətli sədr, mən işçi qruplarının fəaliyyəti ilə bağlı fikrimi bildirmək istəyirəm. Yeni təyin olunacaq həmkarlarımı təbrik edirəm və onlara fəaliyyətlərində uğurlar arzulayıram.

Bizim Konstitusiyamıza görə, hakimiyyətin qanadları bir-biri ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir. Ona görə də hesab edirəm ki, işçi qruplarının hökumətlərarası komissiyanın sədrləri ilə, yaxud elə komissiyanın üzvləri ilə, heç olmasa, ildə bir dəfə görüşünün keçirilməsi məqsədəuyğun olardı.

Hazırda Azərbaycan Avropanın və dünyanın inkişaf etmiş, yeni texnologiyalara sahib onlarca ölkəsi ilə strateji tərəfdaşlığa dair saziş imzalayıb. Bu müqavilələrin dəyəri həm də onunla ölçülməlidir ki, onlar Azərbaycanın qeyri-neft sektoruna nə qədər investisiya qoyub, müasir texnologiya gətirib, iş yeri açıb, yaxud neçə azərbaycanlı tələbəni pulsuz oxudub.

Mən kiçik bir araşdırma apardım. 2019–2023-cü illərdə Türkiyə, Rusiya, Birləşmiş Ərəb Əmirlikləri, Niderland, İsveçrə başda olmaqla, qeyri-neft sektoruna cəmi 6,2 milyard dollar investisiya yatırılıb. Təəssüf ki, son 2 ilin rəqəmlərini əldə edə bilmədim. Hesab edirəm ki, bu, olduqca az bir vəsaitdir. Buna görə bizim işçi qrupları da çalışmalıdırlar ki, həmin o strateji tərəfdaş olduğumuz ölkələr Azərbaycana investisiya yatırsınlar. Məsələn, bu yaxınlarda cənab Prezidentin Serbiyaya səfəri zamanı Serbiyanın Prezidenti Aleksandr Vuçiç cənab Prezidentdən təkidlə xahiş edirdi ki, Azərbaycan orada bir istilik elektrik stansiyası tiksin. Biz də öz strateji tərəfdaşlarımızdan bunu istəməliyik. Məsələn, mən Macarıstan dövlətinə öz minnətdarlığımı bildirirəm. Hər il təqribən 200 azərbaycanlı tələbəni dövlət hesabına orada oxutdurur. Əlbəttə, yaxşı olardı ki, Çin, ərəb ölkələrindən, Birləşmiş Ərəb Əmirliyi və sair də bunu etsin. Mən xatırlayıram, vaxtı ilə Buş Amerika vətəndaşlarına müraciət edirdi ki, Çin və ərəb dillərini öyrənsinlər.

Hesab edirəm ki, hazırda ölkə iqtisadiyyatına böyük investisiyaların qoyulmasına ehtiyac var. Biz bilirik ki, dövlət və idarə, müəssisə və təşkilatlarında ixtisarlar aparılır. Həmçinin iri holdinqlər də işçiləri ixtisar etməyə başlayıblar. Kiçik və orta sahibkarların isə bu insanları işlə təmin etmək imkanları çox məhduddur. Bizim İsrail kimi müttəfiqimiz var. Heç kim bizə silah satmayanda İsrail bizə silah satıb. Amma bu, yetərli deyil. Onlar Azərbaycana müasir texnologiya gətirməlidirlər və Azərbaycan tərəfi də bunu öz tərəfdaşlarından xahiş etməlidir.

Mənim həmkarlarımın diqqətinə çatdırmaq istədiyim, sadəcə, bu idi. Diqqətinizə görə çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Qüdrət müəllim. Mən də qeyd etməliyəm ki, bizim millət vəkilləri dövlətlərarası komissiyaların üzvləri olmasalar da, bu komissiyaların bir çox ölkələrdə keçirilən yığıncaqlarına, xüsusi ilə Bakıda olanda dəvətlidirlər. Əminliklə deyə bilərəm ki, hər bir dostluq qrupunun görüşlərində iqtisadi məsələlər həmişə mütləq şəkildə vurğulanır. Çox sağ olun.

Hörmətli həmkarlar, daha çıxış etmək istəyən yoxdur. Ona görə də mən qərar layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.41 dəq.) |
|---|---|
| Lehinə | 119 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 121 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qərar qəbul edildi.

Mən də yeni işçi qruplarının rəhbərlərinə uğurlar arzulayıram.

Hörmətli həmkarlar, gündəliyin növbəti 2 məsələsi üçüncü oxunuşda olan qanun layihələridir. Gündəliyin 2-ci məsələsi “Yol hərəkəti haqqında” və “Avtomobil yolları haqqında” qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Bu oxunuşda məlumatı komitənin üzvü hörmətli Kamal Cəfərov verəcək. Kamal müəllim, buyurun, məlumat verin.

**Kamal Cəfərov,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Çox təşəkkür edirəm, hörmətli xanım sədr. İkinci oxunuş zamanı səsləndirilən təkliflər gələcəkdə nəzərə alınması üçün qanunvericilik təşəbbüsü subyektinin nümayəndələrinə çatdırılıb. Hazırda qanun layihəsində hər hansı bir dəyişiklik olmadığı üçün olduğu kimi səsə qoyulmasını xahiş edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun.

Qanun layihəsinə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində də baxılmışdır. Komitənin rəyini hörmətli Azər müəllim Badamov verəcək. Azər müəllim, buyurun.

**Azər Badamov,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi sədrinin müavini.*

Təşəkkür edirəm, hörmətli Sahibə xanım. İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin rəyi müsbətdir. Səsə qoymağınızı xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun.

Sualı, sözü olan yoxdur. Üçüncü oxunuşdur. Səsə qoyuram. Buyurun, qanun layihəsinə üçüncü oxunuşda münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.42 dəq.) |
| --- | --- |
| Lehinə | 118 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 119 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Növbəti məsələmiz "İnvestisiya fəaliyyəti haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılmışdır. Məlumat vermək üçün mən komitənin sədri hörmətli Azər Əmiraslanova söz verirəm. Azər müəllim, buyurun, məlumat verin.

**Azər Əmiraslanov,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri.*

Çox təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar, təqdim edilmiş qanun layihəsi ilə bağlı həm birinci, həm də ikinci oxunuşlarda geniş, ətraflı məlumat verilmişdir. O cümlədən hörmətli həmkarlarımız tərəfindən qaldırılan məsələlərə də münasibət bildirilmişdir.

Layihənin üçüncü oxunuşda da qəbul edilməsini məqsədəuyğun hesab edirik. Dəstəklənməsi xahiş olunur. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun.

Hörmətli həmkarlar, sualı olan yoxdur. Qanun layihəsini üçüncü oxunuşda səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.43 dəq.) |
|---|---|
| Lehinə | 116 |
| Əleyhinə | 2 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 119 |

Nəticə: Qəbul edildi

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, biz gündəliyin 4-cü məsələsinə keçirik. “Tibbi sığorta haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Qeyd edim ki, qanun layihəsi bir oxunuşda baxılıb qəbul ediləcək. Layihəyə Səhiyyə komitəsində baxılmışdır. Ona görə komitənin sədri hörmətli Əhliman müəllim Əmiraslanova söz verirəm. Əhliman müəllim, buyurun, məlumat verin.

**Əhliman Əmiraslanov,** *Milli Məclisin Səhiyyə komitəsinin sədri.*

Hörmətli Sahibə xanım, hörmətli həmkarlar, media mənsubları. “Tibbi sığorta haqqında” Qanunda təklif olunan dəyişikliyə əsasən icbari tibbi sığortada müştərək maliyyələşmənin tətbiqi daha bir il təxirə salınır. Qüvvədə olan qanunvericiliyə əsasən müştərək maliyyələşmə məbləği 2026-cı il yanvarın 1-dən ödənilməyə başlanmalı idi. Qanunda nəzərdə tutulan dəyişikliyə əsasən bu tarixin 2027-ci il yanvarın 1-ə qədər uzadılması nəzərdə tutulur.

Hörmətli həmkarlar, qanun layihəsini dəstəkləməyinizi xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Əhliman müəllim.

Çıxış etmək istəyən var. Müşfiq Məmmədli. Buyurun, Müşfiq müəllim.

**Müşfiq Məmmədli.** Hörmətli xanım sədr, hörmətli həmkarlar. Bu gün müzakirə etdiyimiz dəyişiklik “Tibbi sığorta haqqında” Qanunun 15-28.3-cü maddəsinin tətbiq müddətinin 16-4.4-1-ci maddə vasitəsi ilə 2027-ci il 1 yanvar tarixinədək uzadılması mahiyyət etibarı ilə texniki deyil, sistemin gələcək davranışını formalaşdıran strateji qərardır. Söhbət Azərbaycan üzrə icbari tibbi sığorta modelində ilkin tibbi sanitariya yardımının real rolundan gedir.

Qanunun 15-28.3-cü maddəsinə əsasən sığorta olunan şəxs ilkin tibbi sanitariya yardımına müraciət etmədən birbaşa ixtisaslaşdırılmış həkimə getdikdə müştərək maliyyələşmə məbləği ödəməlidir. Bu norma faktiki olaraq ailə həkimi və ailə sağlamlıq mərkəzi, poliklinika səviyyəsini sistemin “ilk qapısı” kimi möhkəmləndirməyə xidmət edir. Lakin bu mexanizm praktikada hələ istənilən səviyyədə işlək deyil. Mən təklif olunan uzadılmanı dörd əsas səbəbə əsasən dəstəkləyirəm.

Birinci səbəb. Sistemin buna tam hazır vəziyyətə gətirilməsi lazımdır. Bu gün bir çox regionda ilkin tibbi sanitariya yardımı, infrastrukturu, kadr təminatı və xidmət spektri vətəndaşın real ehtiyacını tam qarşılamır. Əgər biz indiki mərhələdə müştərək maliyyələşmə mexanizmini tətbiq etsək, vətəndaş faktiki olaraq keyfiyyətli xidmət olmadan əlavə maliyyə yükü ilə üz-üzə qala bilər. Bu isə sosial baxımdan həssas qruplar üçün əlavə çətinliklər yaradır.

İkinci səbəb. Göndəriş sistemi hələ institusional olaraq tam formalaşmayıb. Qanunvericilikdə göndəriş mexanizmi nəzərdə tutulsa da, praktikada ailə həkiminin xəstənin marşrutunu müəyyən edən əsas fiqur kimi rolu hələ tam formalaşmayıb. İnformasiya sistemləri və vahid elektron göndəriş mexanizmi bütün ölkə üzrə istənilən şəkildə stabil fəaliyyət göstərmir. Belə şəraitdə birbaşa ixtisaslaşdırılmış həkimə müraciətə görə vətəndaşa müəyyən maliyyə öhdəliyi həm mexanizmi möhkəmləndirmir, həm də sosial dövlət prinsipləri ilə tam uzlaşmır.

Üçüncü səbəb. Məqsəd müştərək maliyyələşmə tətbiq etmək deyil, davranışı dəyişməkdir. Bu normanın əsas fəlsəfəsi vətəndaşı ailə həkiminə yönləndirməkdir. Bu o halda mümkündür ki, ilkin səhiyyədə qəbul imkanları istədiyimiz səviyyədə real olsun, laborator və diaqnostik minimum paket

yerində təmin edilsin, ailə həkiminin verdiyi göndəriş sürətli şəkildə icra olunsun. Əks halda, vətəndaş üçün ilkin mərhələ əlavə maneəyə çevrilir.

Dördüncü və ən mühüm səbəb. İcbari tibbi sığortanın maliyyə dayanıqlılığı ilkin səhiyyədən başlayır. Bütün beynəlxalq təcrübə göstərir ki, xəstəxana və ixtisaslaşmış xidmətlər üzərində qurulan sistemlər uzunmüddətli perspektivdə daha baha başa gəlir. Əgər biz, doğrudan da, icbari tibbi sığortanın davamlı olmasını istəyiriksə, ilkin mərhələdə erkən diaqnostika, xroniki xəstəliklərin nəzarəti və profilaktika real maliyyə və təşkilati mexanizmlərlə gücləndirilməlidir. Bu, başa çatmadan müştərək maliyyələşmə mexanizminin tam tətbiqi üçün bir qədər zamana ehtiyac vardır.

Hörmətli həmkarlar, təklif olunan dəyişiklik, yəni bu maddənin tətbiqinin 2027-ci il yanvarın 1-dək uzadılması faktiki olaraq bizə 1 il əlavə vaxt qazandırır. Bu vaxt ərzində ilkin tibbi sanitariya yardımı real giriş qapısına çevrilməlidir, göndəriş mexanizmi texniki və təşkilati baxımdan tam oturuşmalıdır, ailə həkimi institutuna ictimai etimad formalaşmalıdır. Yalnız bundan sonra müştərək maliyyələşmə mexanizmi həm sosial baxımdan ədalətli, həm də idarəetmə baxımından effektiv olar. Ona görə də hesab edirəm ki, bu müddətin uzadılması icbari tibbi sığorta sisteminin mahiyyətinə zidd deyil, əksinə, onun sağlam şəkildə qurulması üçün zəruri keçid mərhələsidir və dövlətimizin vətəndaşı ön planda tutmasının bir nümunəsidir.

Sonda vurğulamaq istəyirəm ki, bu dəyişiklik faktiki olaraq ilkin səhiyyəni aparılan sistemli islahatlar yolu ilə gücləndirərək səhiyyə modelinin mərkəzinə gətirməyə xidmət edəcəkdir.

Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Çox sağ olun.

Hörmətli həmkarlar, daha çıxış etmək istəyən yoxdur. Mən qanun layihəsini səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.49 dəq.) |
|---|---|
| Lehinə | 116 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 117 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi qəbul edildi.

Hörmətli həmkarlar, gündəliyin növbəti 6 məsələsi ikinci oxunuşda olan qanun layihələridir. Növbəti məsələ Cinayət Məcəlləsində və Cinayət-Prosessual Məcəllədə dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Bu layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Komitənin sədri hörmətli Əli Hüseynliyə söz verirəm. Əli müəllim, buyurun, məlumat verin.

**Əli Hüseynli,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri.*

Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli deputat həmkarlar, bu layihə haqqında birinci oxunuşda geniş məlumat vermişdim. Bir daha xatırlatmaq istəyirəm, bu layihənin meydana çıxmasının əsas səbəbi bizim bir neçə iclas bundan əvvəl qoşulduğumuz, ratifikasiya etdiyimiz BMT-nin "Kibercinayətkarlığa qarşı" Konvensiyası idi. Həmin konvensiyanın implementasiyası məqsədi ilə konvensiyaya tam uyğun olaraq, Cinayət-Prosessual Məcəlləsində yeni anlayışlar gəlib.

İkinci məsələ isə burada cinayət-mühakimə prosesinin elektron qaydada aparılması ilə bağlıdır. Məhz bu qayda necədir, məlumatlar necə

qorunmalıdır, sübutların təhlükəsizliyi necə həyata keçirilməlidir, axtarış tədbirləri hansı hallarda aparıla bilər, yəni söhbət ancaq elektron qaydadan gedir. Yeni olduğuna görə Cinayət-Prosessual Məcəlləsində bu məsələlər öz əksini tapmış olur.

Bir daha vurğulamaq istəyirəm ki, bu layihə qanunvericiliyimizi konvensiyaya uyğunlaşdırır, eyni zamanda, Cinayət-Prosessual Məcəllədə elektron formada aparılma qaydalarını təmin edir, prosesi şəffaf, sürətli edir, iş yükünü azaldır.

Bütövlükdə, biz layihəni müsbət qiymətləndiririk. Həmkarlarımızdan da dəstəkləməyi xahiş edirik.

**Sədrlik edən.** Çox sağ olun.

Hörmətli həmkarlar, ikinci oxunuşdur, biz qanun layihəsini əsas kimi qəbul etməliyik. Xahiş edirəm, qanun layihəsinə əsas kimi münasibət bildirəsiniz. Buyurun, səsə qoyuram.

| **Səsvermənin nəticələri** | (saat 11.51 dəq.) |
|---|---|
| Lehinə | 114 |
| Əleyhinə | 2 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 116 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi əsas kimi qəbul edildi.

Müzakirəyə keçirik. Qüdrət Həsənquliyev. Buyurun.

**Qüdrət Həsənquliyev.** Çox sağ olun, hörmətli sədr. Mən ikinci oxunuşun tələblərinə uyğun olaraq, 272-ci maddə ilə bağlı Cinayət Məcəlləsində edilən dəyişikliklərə öz münasibətimi bildirmək istəyirəm. Burada 272-ci maddə əvvəl “Kompüter məlumatlarının qanunsuz ələ keçirilməsi” adlanırdı. İndi biz onu “Elektron verilənləri qanunsuz ələ

keçirmək” adlandırırıq.  Əgər biz, Əli müəllimin dediyi kimi, konvensiyadan bu sözü götürmüşüksə, bu “elektron verilənlər” dilimizə düzgün yatmayan bir ifadədir. Biz bunu yeni termin kimi qanunvericiliyə daxil ediriksə, məncə, bu, fikri tam ifadə etmir. Belə daha doğru olardı: “elektron qaydada saxlanılan və ötürülən məlumatların qanunsuz ələ keçirilməsi”. Bizim dilçi alimlər də buna münasibət bildirsəydi, daha yaxşı olardı. Bu halda fikir daha aydın ifadə olunur.

İkinci toxunmaq istədiyim məsələ normanın sanksiyası ilə bağlıdır. Biz görürük ki, son illər informasiya-kommunikasiya texnologiyasının sürətli inkişafı nəticəsində, xüsusi ilə də süni intellektin dövriyyəyə girməsi ilə bir çox şəxslərin şəxsi məlumatları onların kompüterlərindən oğurlanır. Bir çox hallarda həmin insanlar sonradan şantaj olunur. Bu, ciddi mənəvi, psixoloji sarsıntılara yol açır. Ona görə də bu normaların sanksiyası, məncə, sərtləşdirilməlidir.

Mən özüm həmişə cəzaların sərtləşdirilməsinə qarşı olmuşam. Amma hər zaman onu da söyləmişəm ki, əgər hər hansı cinayətin artımında  ciddi yüksəliş müşahidə olunursa, o zaman cəzaların müvəqqəti olaraq sərtləşdirilməsi zərurəti yaranır və bundan bütün dünyada istifadə olunur. Ona görə də cəzalara yenidən baxmalıyıq.

Həmçinin, hörmətli sədr, Əli müəllim artıq qeyd etdi, biz bu günlərdə 2024-cü ildə BMT-də qəbul olunmuş “Kibercinayətkarlığa qaşı Konvensiya”nı təsdiq etdik. Həmin konvensiyanın 2-ci hissəsinin ilk bəndində qeyd olunur ki, ingilis dilində “serious crime”, yəni ağır cinayətlər 4 il və daha artıq azadlıqdan məhrumetmə növündə cəza nəzərdə tutan cinayətlər hesab olunur.

Bizim Cinayət Məcəlləsinin 15-ci maddəsində cinayətlərin  təsnifatında qeyd olunur ki, ağır cinayətlər 7 ildən 12 ilə qədər azadlıqdan məhrumetmə

növündə cəza təyin olunan cinayətlərdir. Konstitusiyamızın 151-ci maddəsinə görə də, beynəlxalq müqavilələr bizim qanunlardan daha üstün hüquqi qüvvəyə malikdirlər. Qanunlar arasında ziddiyyət yarandıqda o zaman beynəlxalq müqavilələr tətbiq olunur. Biz artıq qəbul etdik ki, azadlıqdan məhrumetmə növündə 4 il və daha artıq cəza təyin olunursa, bu, ağır cinayət olacaq. Ona görə də bizim Cinayət Məcəlləsini qanunvericiliyə uyğunlaşdırmaq lazımdır. Sözün doğrusu, mən bilmirəm ki, biz buna hazırıq, yoxsa yox. Çünki ağır cinayət işləri üzrə məhkəmələrdə bununla əlaqədar işlərin həcmi xeyli dərəcədə artmış olacaq. Amma əgər o qanunu ratifikasiya etmişiksə, gərək qanunvericiliyimizi də buna uyğunlaşdıraq. Ona görə ki, bizim "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununa görə, terminlərimiz eyni cür qəbul olunmalıdır və eyni formada tətbiq olunmalıdır. Biz ağır cinayət anlayışını qanunvericiliyimizdə iki formada qəbul edə bilmərik. Ona görə hesab edirəm ki, biz bu məsələyə də diqqət yetirməliyik.

Ümumiyyətlə, kibercinayətkarlıqla bağlı təkcə qeyd etdiyim 272-ci maddə deyil... Sahibə xanım, əgər Siz tövsiyə etsəniz, Əli müəllim müvafiq orqanlarla da bu məsələni müzakirə edər. Bu sahədəki digər cinayətlərə görə də cəzaların sərtləşdirilməsi məsələsini müzakirə edək.

Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Əli müəllim yazılıb. Əli Hüseynli. Buyurun.

**Əli Hüseynli.** Çox sağ olun, hörmətli sədr. Qüdrət müəllim maraqlı məsələlər qaldırdı. Ona görə münasibət bildirmək istədim. Hörmətli həmkarlar, kibercinayətlərlə bağlı cəzaların sərtləşdirilməsi mövqeyi hüquq ictimaiyyətində indi mövcuddur. Zamanında bizim Cinayət Məcəlləsində sanksiyalar elə də sərt deyildi. 3 ilə qədər azadlıqdan məhrumetmə... Çünki

o dövrdə vəziyyət belə deyildi. İndi hamımız razılaşırıq ki, kibercinayətlər, onun formaları artıb və bu, çox böyük narahatlıq yaradır. Buna adekvat bu fikir meydana çıxır. Hörmətli Qüdrət müəllimin bu fikrini, yəni bu ideyanı prinsipcə bölüşürük. Amma onun tətbiqi forması üzərində düşünmək lazımdır ki, biz onu qanunvericilikdə etsək, nələr baş verəcək. Çünki ağır cinayətlər olanda iş yükü artır. Etmək lazımdırmı? Yəni ümumən, bu fikri bölüşürük, amma onun tətbiqi üzərində düşünmək və tərəflərlə, müvafiq qanunvericilik təşəbbüsü subyekti ilə bu məsələni müzakirə etmək lazımdır. Amma yanaşma prinsipcə doğrudur, çünki məsələ aktualdır.

Anlayışlarla bağlı məsələ. Bu sual mənim üçün gözlənilən idi. Ona görə xüsusi vurğulamışdım ki, bizim cinayət-prosessual qanunvericilikdəki bu yeni anlayışlar, – təxminən 6-7 anlayış, – sırf konvensiyada yazılmış anlayışlardır. Onun da üzərində aylarca iş gedib. Bizim xüsusi işçi qrupu bu beynəlxalq konvensiyanın işlənib hazırlanmasında çalışıb. Düşünürəm, yəqin orada da dil sahəsində mütəxəssislər olub. Bu məsələyə bir də baxarıq. Amma “elektron verilənlər” və sair hüquqi ifadələrdir. Bəlkə də ilk baxışdan bir qədər sual yaradır, amma demək istəyirəm ki, sırf bizim səs verdiyimiz, qəbul etdiyimiz, ratifikasiya etdiyimiz konvensiyanın anlayışlarıdır, Cinayət-Prosessual Məcəlləyə köçürülür.

Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Əli müəllim.

Erkin Qədirli. Buyurun.

**Erkin Qədirli.** Çox sağ olun, hörmətli xanım sədr. Mən də fürsətdən istifadə edərək hamının Su çərşənbəsini təbrik edirəm.

Bu layihəyə gəldikdə, mən birinci oxunuşda əleyhinə səs vermişdim, ikinci oxunuşda da əleyhinə səs verəcəyəm. Amma sözü başqa şeyə görə aldım. Qüdrət bəy, həqiqətən də, çox maraqlı bir məsələyə toxundu.

Terminologiya deyil, Əli bəy cavab verdi. Mənim deyəcəklərim beynəlxalq hüquqla bizim Konstitusiya və cinayət qanunvericiliyi arasındakı nisbətdir. Tamamilə doğrudur, beynəlxalq müqavilə ilə yerli qanunvericilik arasında ziddiyyət yarananda Konstitusiyamızın 151-ci maddəsinə görə, üstünlük beynəlxalq müqavilələrə verilir. Yalnız cinayət qanunvericiliyinin öz xüsusiyyətləri var. Dövlətlərin suveren hüquqları bu qanunvericilik üzərində müstəsna rol daşıyır. Hüquqşünaslar bilir: latınca "nullum crimen sine lege, nulla poena sine lege" – yəni qanunsuz cinayət yoxdur, qanunsuz cəza yoxdur. Hansı əməli cinayət sayıb-saymamaq, yaxud o cinayətə görə hansı təsnifata əsasən cəzalandırmaq, cəzanın yuxarı-aşağı hədləri nə olsun – bu, dövlətlərin suveren hüquqlarıdır.

Əgər o konvensiyadan söhbət gedirsə, beynəlxalq müqavilədə ağır cinayətin cəzasının 4 ildən başladığını müəyyən edən müddəa Azərbaycan üzərində o baxımdan heç bir öhdəlik qoymur. Azərbaycan dövləti cinayətlərin təsnifatını cinayət-hüququnun təməl prinsiplərinə uyğun qurub. Bu baxımdan, bizim qanunvericilikdə bir problem yoxdur. O müqavilə bizim üzərimizə xüsusi öhdəlik də qoymur ki, Cinayət Məcəlləmizdə cinayətlərin təsnifatına yenidən baxaq. Üstəlik, bütün beynəlxalq müqavilələr istər-istəməz kompromis nəticəsidir. Hüquq sistemlərində, xüsusi ilə cinayət-hüquq qanunvericiliyində önəmli fərqlər var. Biz kontinental hüquq sisteminə daxilik. Bizdə cinayətin tərkibi 4 ünsürdən ibarətdir: subyekt, subyektiv cəhət, obyekt, obyektiv cəhət.

Anqlo-sakson hüquq sistemində isə bu, iki ünsürdən ibarətdir: "Mental element" və "material element". Onlar belə bölürlər. Yəni bütün bu uyğunsuzluqlar, kompromis nəticəsi olaraq beynəlxalq müqavilələrdə bu təsnifat və anlayışlar bu cür verilir. Ona görə mən o baxımdan bir problem

görmürəm. Bu layihənin əleyhinə niyə səs verəcəyimi izah edərək vaxtınızı almaq istəmirəm. Bu, tamam başqa bir səbəbdəndir.

Xanım sədr, mənə söz verdiyinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Daha çıxış etmək istəyən yoxdur. Hörmətli həmkarlar, bildiyiniz kimi, biz ikinci oxunuşda maddələr üzrə səs verəcəyik. Bu qanun layihəsi 2 maddədən ibarətdir. Xahiş edirəm, 1-ci maddəyə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.01 dəq.) |
|---|---|
| Lehinə | 117 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 118 |
| Nəticə: Qəbul edildi | |

1-ci maddə qəbul edildi.

İndi isə 2-ci maddəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.01 dəq.) |
|---|---|
| Lehinə | 115 |
| Əleyhinə | 2 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 117 |
| Nəticə: Qəbul edildi | |

Bu maddə də qəbul edildi.

İndi isə mən qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.02 dəq.) |
|---|---|
| Lehinə | 115 |

| | |
|---|---|
| Əleyhinə | 2 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 118 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, növbəti məsələmiz Cəzaların İcrası Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Bu layihəyə də Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün komitənin üzvü hörmətli Bəhruz Məhərrəmova söz verirəm. Bəhruz müəllim, buyurun.

**Bəhruz Məhərrəmov**, *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Çox sağ olun. Çox hörmətli sədr, əziz həmkarlar, Cəzaların İcrası Məcəlləsində dəyişiklik layihəsi birinci oxunuşda geniş məruzə olunub. Məlumdur ki, layihənin məqsədi məhkəmə qaydasında təyin olunmuş cərimə cəzasının məhkum tərəfindən müəyyən edilmiş müddətə ödənilməməsi hallarında icra qaydasının təkmilləşdirilməsi və tezləşdirilməsidir. Təklif olunur ki, cərimənin ödənilməsi artıq əvvəlcə məhkumun əmlakına deyil, əməkhaqqına və başqa qazancına yönəlsin. Birinci oxunuşdan sonra konseptual mahiyyət üzrə heç bir təklif daxil olmadığı üçün layihənin olduğu kimi səsə qoyulmasını xahiş edirik. Həmçinin həmkarlarımızı da ikinci oxunuşda sənədi dəstəkləməyə çağırırıq.

Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Hörmətli həmkarlar, qanun layihəsinə əsas kimi münasibət bildirməliyik. Buyurun, münasibət bildirin. Səsə qoyuram.

| **Səsvermənin nəticələri** | (saat 12.03 dəq.) |
|---|---|
| Lehinə | 115 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 115 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi əsas kimi qəbul edildi.

Müzakirəyə yazılan var. Razi müəllim?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Yazılanlar yoxdur. Səsverməyə keçirik. Maddələr üzrə səs verəcəyik. Qanun layihəsi 2 maddədən ibarətdir. Xahiş edirəm, 1-ci maddəyə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.04 dəq.) |
|---|---|
| Lehinə | 116 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 117 |
| Nəticə: Qəbul edildi | |

Maddə qəbul edildi.

İndi isə 2-ci maddəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.04 dəq.) |
|---|---|
| Lehinə | 114 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 1 |
| İştirak edir | 115 |
| Nəticə: Qəbul edildi | |

Bu maddə də qəbul edildi.

İndi isə mən qanun layihəsini ikinci oxunuşda bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.04 dəq.) |
|---|---|
| Lehinə | 114 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 114 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Hörmətli deputatlar, növbəti məsələyə keçirik. Bu məsələ Mülki Məcəllədə və “Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Bu layihəyə də Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün komitənin üzvü hörmətli Nurlan Həsənova söz verirəm. Nurlan müəllim, buyurun.

**Nurlan Həsənov,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Təşəkkür edirəm, hörmətli xanım sədr. İlk oxunuş zamanı layihə barədə geniş məlumat verilmişdir. Layihənin mətnində heç bir dəyişiklik yoxdur. İkinci oxunuşda olduğu kimi səsə qoyulmasını xahiş edirik.

**Sədrlik edən.** Çox sağ olun, Nurlan müəllim.

Bu məsələyə ikinci komitədə – Aqrar siyasət komitəsində də baxılıb. Ona görə də komitənin sədri hörmətli Tahir müəllim Rzayevə söz verirəm. Tahir müəllim, buyurun.

**Tahir Rzayev**, *Milli Məclisin Aqrar siyasət komitəsinin sədri.*

Çox sağ olun, hörmətli sədr. Hörmətli sədr, komitənin rəyi müsbətdir, nəzərə alınmasını xahiş edirəm. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun.

Hörmətli həmkarlar, qanun layihəsini əsas kimi qəbul etməliyik. Xatırladım, ikinci oxunuşdur. Buyurun, qanun layihəsinə əsas kimi münasibət bildirməyinizi xahiş edirəm.

| **Səsvermənin nəticələri** | (saat 12.06 dəq.) |
|---|---|
| Lehinə | 110 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 111 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi əsas kimi qəbul edildi.

Biz indi müzakirəyə keçirik. Razi Nurullayev. Buyurun.

**Razi Nurullayev**. Hörmətli xanım sədr, təşəkkür edirəm. Müzakirə etdiyimiz sənəd dövlət ehtiyacları üçün torpaqların alınmasını nəzərdə tutur. Bu, çox həssas və məsuliyyətli bir məsələdir. Mülki Məcəllənin 157.9-cu maddəsi və “Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında” Qanunun 3-cü maddəsi dövlət ehtiyaclarının dairəsini müəyyən edir. Düşünürəm ki, biz bu anlayışa daha müasir və iqtisadi inkişaf yönümlü yanaşmalıyıq. Bu gün ölkəmizdə yüzlərcə biznes subyekti var ki, genişlənmək, istehsalı artırmaq, ixraca çıxmaq, yeni zavod və ya sex

açmaq istəyir. Onların bir çoxu Torpaq Məsələsinə görə illərcə gözləyir, prosedurlarda ilişib qalır. Halbuki həmin layihələr reallaşsa, hər biri 30, 50, 100 və daha çox yeni iş yeri yarada bilər. Təklif edirəm ki, dövlət ehtiyacı anlayışına yeni bir məfhum əlavə edək. Əgər hər hansı biznes layihəsi rəsmi şəkildə ən azı 30 və daha artıq daimi iş yeri yaratmaq öhdəliyini götürürsə və bu, iqtisadi əsaslandırma ilə təsdiqlənirsə, belə layihə dövlət ehtiyacı hesab edilsin. Bu halda torpaq məsələləri sürətləndirilmiş qaydada həll olunsun və biznesin genişləndirilməsinə imkan yaradılsın.

Açıq danışaq. Dövlət vətəndaşa görə dövlətdir. Dövlətin ümdə vəzifələrindən biri də vətəndaşını iş ilə təmin etməkdir. İş yeri olmayan yerdə sosial sabitlik də zəifləyir, regionlar boşalır, gənclər ümidini itirir. Ən böyük dövlət ehtiyacı nədir? Yeni inzibati binalar, yeni hasarlar? Xeyr. Ən böyük dövlət ehtiyacı vətəndaşın işlə təmin olunmasıdır. Əgər biz bunu prioritet elan etsək, qanunvericiliyi də bu fəlsəfəyə uyğunlaşdırmalıyıq. Təklif edirəm:

1. Mülki Məcəllənin 157.9-cu maddəsinə əlavə edilsin ki, dövlət ehtiyacı anlayışına iqtisadi inkişaf və məşğulluğun artırılması məqsədi ilə həyata keçirilən minimum 30 yeni iş yeri yaradan investisiya layihələri də daxil edilsin.

2. “Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında” Qanunun 3-cü maddəsində dövlət ehtiyaclarının siyahısı genişləndirilsin və məşğulluq yönümlü iri və orta biznes layihələri ayrıca bənd kimi təsbit olunsun.

Bu, mülkiyyət hüququnun zəiflədilməsi deyil, əksinə, bu, iqtisadi fəallığın artırılması, işsizliyin azaldılması və regionların inkişafı üçün hüquqi mexanizmin yaradılmasıdır. Əlbəttə, burada şəffaflıq, ədalətli kompensasiya və sui-istifadənin qarşısının alınması əsas şərt olmalıdır. Biz qanunu elə yazmalıyıq ki, həm vətəndaşın mülkiyyət hüququ qorunsun,

həm də vətəndaş iş tapsın. Çünki sosial ədalət yalnız hüququ qorumaqla deyil, həm də imkan yaratmaqla təmin olunur. Dövlət ehtiyacı anlayışını, gəlin, yenidən düşünək. Dövlətin ən böyük ehtiyacı işləyən, qazanan, ölkəsinə dəyər qatan vətəndaşdır.

Təşəkkür edirəm, xanım sədr.

**Sədrlik edən.** Sağ olun, öz fikirlərinizi bildirdiniz.

Naqif Həmzəyev. Buyurun.

**Naqif Həmzəyev**. Təşəkkür edirəm, Sahibə xanım. Hörmətli xanım sədr, hörmətli həmkarlar, müzakirəyə çıxarılan "Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında" Azərbaycan Respublikası Qanununun 3-cü maddəsi dövlətin torpaq üzərində sərəncam səlahiyyətlərinin aydın, şəffaf və hüquqi çərçivədə müəyyənləşdirilməsi baxımından vacib əhəmiyyət daşıyır. Maddənin qapalı siyahı prinsipi əsasında formalaşdırılması vətəndaşların mülkiyyət hüququ üçün əsas təminat mexanizmlərindən biridir və bu baxımdan müsbət qiymətləndirilməlidir. Bununla yanaşı, müqayisəli hüquqi təhlil göstərir ki, müasir dövrün çağırışları nəzərə alınmaqla, mövcud siyahının müəyyən sahələr üzrə yenilənməsi məqsədəuyğun ola bilər. Ekoloji təhlükələr, rəqəmsal transformasiya prosesləri, sosial infrastrukturun genişləndirilməsi və fəlakət risklərinin artırılması kimi amillər dövlət ehtiyaclarının məzmununu daha da genişləndirir. Bu baxımdan, təklif edirəm ki, iqlim dəyişiklikləri ilə bağlı beynəlxalq öhdəliklər və yaşıl iqtisadiyyat hədəfləri nəzərə alınaraq, bərpa olunan enerji layihələri, həmçinin daşqın və sürüşmə risklərindən qorunma məqsədi ilə mühafizə zonalarının yaradılması dövlət ehtiyacları sırasında ayrıca nəzərdən keçirilə bilər. Bu, həm ekoloji təhlükəsizliyə, həm də davamlı inkişaf prinsiplərinə xidmət edər.

Həmçinin Avropa ölkələrinin böyük əksəriyyətinin qanunvericiliyində dövlət xəstəxanaları, məktəblər, universitetlər və uşaq bağçaları kimi ictimai sosial obyektlər torpağın alınmasında əsas kimi tanınır. Qanunda isə bu sahə mövcud siyahıda birbaşa əks olunmayıb. Qarabağın bərpası prosesi və sosial infrastrukturun genişləndirilməsi zərurəti nəzərə alındıqda, bu boşluğun doldurulması xüsusi aktuallıq kəsb edir.

Bununla yanaşı, rəqəmsal Azərbaycan strategiyasının uğurla həyata keçirilməsi üçün data mərkəzlər, fibrooptik magistral xətlər və müasir telekommunikasiya infrastrukturunun inşası getdikcə daha vacib hala gəlir. Bu sahədə torpağın alınmasına hüquqi əsas vermək dövlətimizin rəqəmsal gələcəyini təmin etmək baxımından zəruridir.

Siyahının genişləndirilməsi ilə paralel olaraq bir sıra prosedur zəmanətlər də mütləq qanuna əlavə edilməlidir. Müstəqil qiymətləndirmə mexanizmi, torpaq sahibinin məhkəməyə müraciət hüququnun açıq şəkildə təsbit olunması, kompensasiyanın bazar qiymətindən aşağı ola bilməyəcəyi norması və alınan torpaq nəzərdə tutulmuş məqsəd üçün istifadə edilmədikdə geri qaytarılma mexanizminin olması yaxşı hal olardı. Bu zəmanətlər olmadan siyahının hər hansı genişləndirilməsi vətəndaşların maraqlarına zərər vura bilər.

Hörmətli xanım sədr, hörmətli həmkarlar, beynəlxalq təcrübə göstərir ki, dövlət ehtiyaclarının siyahısı statik olmamalı, ölkənin inkişaf strategiyası, ekoloji öhdəlikləri və texnoloji tərəqqisi ilə paralel olaraq yenilənməlidir. Lakin bu yenilənmənin hər addımı mülkiyyət hüquqlarının qorunması baxımından daha güclü prosedur zəmanətlərlə müşayiət olunmalıdır. Məhz bu balansın saxlanılması hüquqi dövlət prinsipinin əsas şərtidir.

Qanunda təklif edilən dəyişiklikləri dəstəkləyirəm. Mənim də irəli sürdüyüm təkliflər məqsədəmüvafiq olduğu təqdirdə, indi və ya sonrakı

müzakirələr zamanı nəzərə alınmasını xahiş edirəm. Diqqətiniz üçün çox sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Aydın Hüseynov. Buyurun.

**Aydın Hüseynov.** Hörmətli xanım sədr, həmkarlarım, xüsusi ilə Naqif müəllim bu siyahıların genişləndirilməsi ilə bağlı fikirlərini səsləndirdilər. Qanun layihəsindəki 3-cü maddədə dövlət əhəmiyyətli yolların və digər kommunikasiya xətlərinin, – burada kommunikasiya xətləri nədən ibarətdir, oxuyub vaxt almaq istəmirəm, – açılışı göstərilir ki, bunlar nələrdir. Burada dövlət əhəmiyyətli yollar dedikdə mən düşünürəm ki, magistral yol və dəmiryol ifadələri nəzərdə tutulur. Yəni yollar nədən ibarətdir? Onların da artırılması, hesab edirəm, düzgün olardı. Çox yaxın gələcəkdə, – dəfələrlə demişik, – bu, bir reallıqdır ki, Azərbaycan böyük nəqliyyat-logistika mərkəzinə çevrilməkdədir. Xüsusi ilə dəmiryolu ilə daşımaların həcmi daha da artacaq. Bu baxımdan da, dəmiryolunun adının xüsusi qeyd olunması məntiqli olar.

Digər tərəfdən, müzakirə etdiyimiz qanun layihəsinin ən əhəmiyyətli maddələrindən biri də 157-ci maddədir: “Mülkiyyətin müdafiəsi”. Burada dəniz limanlarının ərazisinin artırılması ilə əlaqədar məsələ dövlət ehtiyaclarının siyahısına daxil olunur. Bu, çox düzgün yanaşmadır. Məlumdur ki, dəniz limanları da iqtisadiyyatımızda əhəmiyyətli sahələrdən biridir. Bakının Qaradağ rayonunun Ələt qəsəbəsində yeni Bakı Dəniz Ticarət Limanı fəaliyyət göstərir. Onun əraziləri getdikcə daha da artırılır. Burada gələcəkdə hansı məsələlər baş verə bilər? Əlbəttə, bütün proseslər həll olunandır. Həmin ərazilərdə, yəni liman ərazisində və qeyd etdiyim dəmiryol ərazilərində çox sayda özəlləşməyən mülkiyyətlər var. Bu mülkiyyətlər özəlləşdirilmədiyi üçün həmin ehtiyacların alınması prosesində

müəyyən gərginliklər yaranır. Ona görə də, düşünürəm, həmin əraziyə yaxın torpaq sahələrinin, yaxud da mülkiyyətin özəlləşdirilməsi ilə bağlı addımların indidən atılması gələcəkdə işləri daha da asanlaşdırar.

Burada istiqamətlərdən biri nədən ibarətdir? Ümumilikdə, 20 ilə qədər kim həmin torpaq sahəsində ev tikibsə, yaxud da orada fəaliyyət göstərirsə, həmin sahələrin özəlləşdirilməsi daha məntiqli olar. Çünki vətəndaşlar uzun illərdir, hələ Sovet dövründən öz evlərində yaşayırlar. İndiyə qədər bu və ya digər səbəbdən özəlləşdirə bilməyiblər. Hətta dəmiryoluna yaxın böyük bir yaşayış binası var. Orada da indiyə qədər, 40 ilə yaxındır, insanlar yaşayır, lakin özəlləşdirə bilməyiblər. Bu barədə hörmətli həmkarım Anatoliy müəllimə də müraciət olunmuşdur. Fikrim nədən ibarətdir? Dövlət ehtiyacları üçün alınacağı ehtimal olunan ərazilərdə özəlləşmə sənədlərinin verilməsinin sürətləndirilməsi.

Təşəkkür edirəm, sağ olun.

**Sədrlik edən.** Sağ olun. Aydın müəllim  bu məsələ ilə bağlı çıxış edən yeganə deputatdır ki, bu qanun layihəsində “hava limanı” sözünü dedi. Nə aeroport, nə də aerodrom. Əslində, bu dəyişikliklər bununla bağlıdır. Kimi nə maraqlandırır, elə o təklifi verir. Mən məcburam, bunu deyəm.

Siyavuş Novruzov. Buyurun,

**Siyavuş Novruzov**. Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputatlar, bu, vacib qanun layihəsidir. Bu qanun layihəsinə səs verəcəyik. Hörmətli xanım sədr, Siz də bu məsələyə toxundunuz. Burada dövlət ehtiyacları üçün torpaqların alınması ilə əlaqədar qanunda göstərilibdir. Biz, sadəcə, iki şeyi bura əlavə edirik. Hava limanlarını və dəniz limanlarını. Bu da ki, zərurət yarandıqda, dövlətin ehtiyacı olduqda bu ərazilərin alınmasından söhbət gedir. Onsuz da, mülkiyyətin forması bəllidir. Dövlət mülkiyyəti, bələdiyyə mülkiyyəti, şəxsi mülkiyyət. Hər mülkiyyətdə olan

torpaq alındıqca, yəni buna xüsusi zərurət yarandıqda, dövlət ehtiyacı olduqda bu alınır.

Burada iş yerləri ilə, digər məsələlərlə əlaqədar məsələ qaldırıldı. Elə hava limanının açılması ilə nə qədər iş yeri yaranır. Yaxud da dəniz limanının açılması ilə əlaqədar kifayət qədər iş yerləri yaranır.

Fikir verirsinizsə, bu günlərdə qanunsuz evlərin özəlləşdirilməsi ilə bağlı tez-tez məsələ qaldırılır. Bunu niyə özəlləşdirirlər? Ona görə ki, torpağın kateqoriyasına uyğun şəkildə qurulmayıbdır. Kənd təsərrüfatına aid olan torpaqda yaşayış evi tikiblər. Yaxud da kim isə özünə biznes obyekti tikib və özəlləşdirmək istəyir. Təbii ki, birinci, bu torpağın kateqoriyası dəyişilməlidir. İkincisi, özəlləşdirilməlidir. Bizim qanun layihəmiz isə onu göstərir ki... Bu gün işğaldan azad edilmiş ərazidə 3 hava limanı tikilibdir. Azərbaycanın digər ərazilərində yenilərinin də tikilməsi nəzərdə tutulub. Dəhlizlərin açılması ilə və digər məsələlərlə əlaqədar Azərbaycanın yeni dəniz limanlarının salınmasına ehtiyac var. Belə olan halda, hansı isə mülkiyyətçi öz mülkiyyətini olmazın qiymətinə dövlətə təklif etməsin. Əgər bu, dövlətin zərurətidirsə, ehtiyac varsa, burada Azərbaycanın büdcəsi üçün, gələcəyi üçün işlər görülürsə, artıq bu vəsait dövlətin müəyyən etdiyi qiymətlə dövlət ehtiyacları üçün istifadə oluna bilər. Məsələnin mahiyyəti bundan ibarətdir.

Xanım sədr, icazə versəniz, bir neçə kəlmə də deyim. Bayaq işğaldan azad edilmiş ərazilərlə bağlı fikir söylənildi. Kifayət qədər insan özəl sektorda işləyir, çalışır. İnsanlar orada gedib yaşayır, fəaliyyət göstərir. Cənab Prezident hər dəfə işğaldan azad olunmuş ərazilərə səfər etdikdə yeni iş yerləri – müəssisələr açır. Baxırıq ki, bu müəssisələrin böyük hissəsi özəl sektorun payına düşür. Özəl sektor dövlətdən həm kredit almaqla, həm də öz vəsaitini qoymaqla fəaliyyətini həyata keçirir. Ayrı-ayrı sərmayəçilər

burada fəaliyyət göstərir. Orada iş görmək üçün tender elan olunur və bu tender əsasında iş gedir. Kim tenderdə qalib gəlirsə, orada iş qura bilər.

Bəli, bu gün biz artıq şəhərsalma ilə əlaqədar böyük bir tədbir keçiririk. İlimiz də şəhərsalma ilidir. Burada kim nə vaxt və necə istədiyi ev tikməli deyil. Standarta, dünya təcrübəsinə, müasir infrastruktura uyğun evlər tikilir və vətəndaşlara pulsuz verilir. Bunu qiymətləndirmək lazımdır ki, heç bir dövlət öz vətəndaşı üçün bu addımı atmır. Bu, Azərbaycan dövlətidir, Azərbaycan Prezidentidir.

Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Siyavuş müəllim. Sonuncu dediklərinizlə bağlı biz də öz fikirlərimizi bildirdik. Bu gün Qarabağ torpaqları qarabağlılara verilir. Qarabağa köçən hər bir ailə, kim işləməyə qadirdirsə, orada iş görə bilirsə, işlə təmin olunur. Həmişə görürük və Sizin də dediyiniz kimi, möhtərəm cənab Prezident çox  zaman özü Qarabağa köçənlərə gözəl tikilmiş villaların açarlarını verir.

Nurlan Həsənov. Buyurun.

**Nurlan Həsənov.** Təşəkkür edirəm, hörmətli xanım sədr. Bütün deputat həmkarlarıma öz təklifləri, fikirləri üçün minnətdarlığımı bildirirəm.

Biz burada torpaqların alınması dedikdə, yalnız müəyyən müstəsna hallarda dövlət ehtiyacları üçün mülkiyyətin məhdudlaşdırılmasını nəzərdə tuturuq. Yəni burada xüsusi mülkiyyətdə, yaxud bələdiyyə mülkiyyətində, o cümlədən dövlət mülkiyyətində olan torpaqların, lakin icarəyə verilmiş torpaqların bu ehtiyaclar nəzərə alınmaqla alınması nəzərdə tutulur. Məsələn, neft və qaz boru kəmərinin çəkilməsi, digər bir ərazidən keçməsi mümkün olmadığı üçün bu, artıq dövlət ehtiyacıdır və hansısa bir mülkiyyət hüququ bu zaman məhdudlaşdırıla bilər. Yəni bu, dövlət ehtiyacı deməkdir.

Bu gün müzakirə apardığımız qanun layihəsi də dövlət mülkiyyətində olan hava limanlarının tikintisi, o cümlədən ərazisinin genişləndirilməsi məqsədi ilə hazırlanmışdır. Əgər burada dövlət ehtiyacı yoxdursa, hansı isə bir biznes, yaxud digər məqsədlər üçün heç bir halda mülkiyyət hüququ məhdudlaşdırıla bilməz.

**Sədrlik edən.** Çox sağ olun, Nurlan müəllim. Mən düşünürəm ki, bəzi məsələlər gərək birinci oxunuşda daha dəqiq vurğulanaydı. Burada isə ikinci oxunuşda, təqdimatda o dəyişikliklər bir daha təkrarlanmalı idi.

Razi müəllim, bu məsələ ilə bağlı yazılmısınız?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Buyurun.

**Razi Nurullayev.** Xanım sədr, söz verdiyiniz üçün təşəkkür edirəm. Mən Siyavuş müəllimə məntiqli, dərin, müfəssəl, hərtərəfli çıxışına görə dərindən təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun.

Hörmətli həmkarlar, daha çıxış etmək istəyən yoxdur. Biz səsverməyə keçirik. Qanun layihəsinə maddələr üzrə səs verəcəyik. 2 maddədən ibarətdir. 1-ci maddəyə münasibət bildirməyinizi xahiş edirəm. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.23 dəq.) |
|---|---|
| Lehinə | 111 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 111 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, 1-ci maddə qəbul edildi.

İndi isə mən 2-ci maddəni səsə qoyuram. Buyurun.

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.24 dəq.) |
| Lehinə | 112 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 113 |
| Nəticə: Qəbul edildi | |

2-ci maddə də qəbul edildi.

Qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun.

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.24 dəq.) |
| Lehinə | 112 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 114 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, növbəti məsələ Əmək Məcəlləsində, “Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında” və “Əmək pensiyaları haqqında” qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Əmək və sosial siyasət komitəsində baxılmışdır. Komitənin sədri hörmətli Musa Quliyevə söz verirəm. Musa müəllim, buyurun.

**Musa Quliyev,** *Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri.*

Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri, qanun layihəsi barədə birinci oxunuş zamanı Məclisə ətraflı məlumat verilmişdir. İkinci oxunuşun tələblərinə uyğun olaraq, söyləmək istəyirəm ki, qanun layihəsi 4 maddədən ibarətdir. Qanun layihəsinin 1-ci, 2-ci, 3-cü maddələri qeyd olunan qanunların müvafiq maddələrində “sosial sığorta nömrəsi”

sözlərinin "fərdi denitrifikasiya" sözləri ilə əvəz olunmasını nəzərdə tutur. Bu dəyişikliklər sosial sığorta sistemində məlumatların idarə olunmasında vahidliyi və uyğunluğu təmin edəcək, eləcə də qurumlar arasında məlumat mübadiləsini asanlaşdıraraq elektron sistemlərin inteqrasiyasını sürətləndirəcəkdir.

4-cü maddə qanunun qüvvəyə minməsi ilə bağlıdır. Bu qanun qəbul olunandan sonra 2026-cı il iyulun 1-də qüvvəyə minəcəkdir.

Komitədə ətraflı müzakirə olunmuşdur. Komitəyə qanunla bağlı əlavə təkliflər daxil olmamışdır. Komitənin rəyi müsbətdir. İkinci oxunuşda Məclisdən qanunu dəstəkləməyi xahiş edirəm. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Musa müəllim.

Hörmətli həmkarlar, biz qanun layihəsini əsas kimi qəbul etməliyik. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.26 dəq.) |
|---|---|
| Lehinə | 115 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 115 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi əsas kimi qəbul edildi.

Çıxışa yazılan yoxdur. Maddələr üzrə səsverməyə keçirik. Musa müəllim qeyd etdi, qanun layihəsində 4 maddə var. Mən onları iki-iki səsə qoyacağam.

Xahiş edirəm, 1-ci və 2-ci maddələrə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.27 dəq.) |
|---|---|
| Lehinə | 117 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 117 |
| Nəticə: Qəbul edildi | |

Bu 2 maddə qəbul edildi, çox sağ olun.

İndi isə 3-cü və 4-cü maddələri səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.27 dəq.) |
|---|---|
| Lehinə | 114 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 114 |
| Nəticə: Qəbul edildi | |

Bu maddələr də qəbul edildi.

İndi isə qanun layihəsini ikinci oxunuşda bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.27 dəq.) |
|---|---|
| Lehinə | 116 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 116 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, gündəliyin növbəti 2 məsələsi mahiyyətcə bir-birinə yaxın olan qanun layihələridir. “Dövlət qulluğu haqqında” Qanunda və digər qanunvericilik aktlarında dəyişiklik edilməsi barədə qanun layihəsi və 10-cu

məsələ isə "Azərbaycan Respublikası İnsan hüquqları üzrə müvəkkilli (ombudsman) haqqında" Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə  Konstitusiya qanununun layihəsidir. Ötən dəfə olduğu kimi, biz əvvəlcə qanun layihələrinin təqdimatlarını dinləyəcəyik, sonra isə birlikdə müzakirə edək və ayrılıqda səs verəcəyik.

Hər iki layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün Əli müəllim, mən Sizə söz verirəm. Buyurun.

**Əli Hüseynli.** Çox sağ olun, hörmətli Sahibə xanım. Hörmətli deputat həmkarlar, hər iki layihə ilə bağlı birinci oxunuşda çox geniş təqdimat etmişəm. Bir daha söyləmək istəyirəm ki, hər iki qanun layihəsinin məqsədi dövlət qulluqçularının əməyinin ödənilməsi sisteminin təkmilləşdirilməsi, unifikasiyasıdır. Hesab edirəm ki, mükəmməl hazırlanmış bir qanun layihəsidir. Cənab Prezident tərəfindən təqdim olunub. İkinci oxunuşda da dəstəklənməsini, səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Əli müəllim, çox sağ olun.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Təklif var, səsə qoyaq.

İndi mən 9-cu məsələni səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.29 dəq.) |
|---|---|
| Lehinə | 118 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 118 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun.

Hörmətli həmkarlar, mən bu məsələni əsas kimi səsə qoyurdum. Ona görə də qanun layihəsi, yəni 9-cu məsələ əsas kimi qəbul edildi.

İndi isə mən 10-cu məsələdə olan qanun layihəmizi əsas kimi səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.30 dəq.) |
|---|---|
| Lehinə | 119 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 119 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu qanun layihəsi də əsas kimi qəbul edildi.

İndi isə, hörmətli həmkarlar, biz "Dövlət qulluğu haqqında" Qanunda və digər qanunvericilik aktlarında dəyişiklik edilməsi barədə qanun layihəsinin maddələr üzrə səsverməsinə keçirik. Bu qanun layihəsində 17 maddə var. Mən onları altı-altı səsə qoyacağam. Xahiş edirəm, indi ilk 6 maddəyə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.30 dəq.) |
|---|---|
| Lehinə | 118 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 118 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu 6 maddə qəbul edildi.

İndi isə mən növbəti 6 maddəni səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.31 dəq.) |
|---|---|
| Lehinə | 116 |
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 117 |
| Nəticə: Qəbul edildi | |

Bu maddələr də qəbul edildi.

Bizim 5 maddəmiz qalır. Mən o 5 maddəni də səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.31 dəq.) |
|---|---|
| Lehinə | 115 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 116 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bunlar da qəbul edildi.

İndi isə mən qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.32 dəq.) |
|---|---|
| Lehinə | 116 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 117 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

İndi isə, hörmətli həmkarlar, biz 10-cu məsələdə olan qanun layihəsinin maddələri üzrə səsverməsinə keçirik. Bu qanun layihəsində 3 maddə var.

Mən onları bir-bir səsə qoyacağam. Xahiş edirəm, indi 1-ci maddəyə münasibət bildirəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.32 dəq.) |
| --- | --- |
| Lehinə | 116 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 117 |
| Nəticə: Qəbul edildi | |

Bu maddə qəbul edildi.

İndi isə 2-ci maddəni səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.32 dəq.) |
| --- | --- |
| Lehinə | 115 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 117 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, maddə qəbul edildi.

İndi isə mən 3-cü maddəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.33 dəq.) |
| --- | --- |
| Lehinə | 117 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 118 |
| Nəticə: Qəbul edildi | |

3-cü maddə də qəbul edildi.

İndi isə mən qanun layihəsini ikinci oxunuşda bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.33 dəq.) |
|---|---|
| Lehinə | 113 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 116 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, Konstitusiya qanununun layihəsi ikinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, biz növbəti məsələlərə keçirik. Bizim gündəliyimizdə 2 məsələ qalır və onların hər ikisi birinci oxunuşda olan qanun layihələridir. 11-ci məsələ “Yerin təki haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Təbii ehtiyatlar, energetika və ekologiya komitəsində baxılmışdır. Komitənin sədri hörmətli Sadiq müəllim Qurbanova söz verirəm. Sadiq müəllim, buyurun, sizin məsələnizdir.

**Sadiq Qurbanov,** *Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri.*

Çox sağ olun. Dəyərli Sahibə xanım, hörmətli millət vəkilləri, müzakirənizə təqdim olunmuş qanun layihəsi cənab Prezident İlham Əliyevin 2024-cü il 23 dekabr tarixli 420 nömrəli Sərəncamına uyğun olaraq, Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən hazırlanıb. Bu layihənin hazırlanmasına “Boston Consulting Group” beynəlxalq şirkəti də cəlb edilibdir. Yerin təkindən istifadə sahəsində mövcud problemlərin analizləri nəzərə alınmaqla bir çox təkliflər hazırlanmışdır. Bunlardan yerin təkindən istifadəyə icazə və tələblərin sadələşdirilməsi, istismardan sonrakı

mərhələdə rekultivasiya işlərinin aparılması və bu tipli bir çox təkliflər irəli sürülmüşdür.

Təkliflərin məqsədi yer təkinin istifadəsi sahəsində hüquqi tənzimləmə prosedurlarının təkmilləşdirilməsi, təbii ehtiyatlardan istifadənin səmərəliliyinin artırılması, ekoloji təhlükəsizliyin gücləndirilməsi və dağ-mədən fəaliyyəti nəticəsində yaranan tullantıların dövriyyəyə cəlb olunmasının hüquqi əsaslarını dəqiqləşdirməkdir.

Məlum olduğu kimi, cənab Prezidentin 2024-cü il 10 oktyabr tarixli 320 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Su ehtiyatlarından səmərəli istifadəyə dair Milli Strategiya”da su ehtiyatlarının artırılması, əhalinin keyfiyyətli içməli su və suvarma suyu ilə təmin olunması məqsədi ilə su anbarlarının təmizlənməsi, təbii və texnogen çirklənmələrin aradan qaldırılması, su resurslarının dayanıqlı idarə edilməsi prioritet vəzifələr kimi ortaya qoyulmuşdur. Təmizləmə işləri nəticəsində uzun illər ərzində anbarlarda toplanmış qum, qum-çınqıl və gil tərkibli materialların çıxarılması anbarların hidravlik göstəricilərinin bərpa olunmasına, suyun keyfiyyətinin yüksəlməsinə və ətraf mühitin qorunmasına xidmət etməklə yanaşı, milyonlarca kubmetr inter materialların iqtisadi dövriyyəyə cəlb olunması ilə nəticələnəcəkdir.

Diqqətinizə çatdırım ki, hazırda ölkədə 140-dan çox iri və orta su anbarları, tutarları mövcuddur. Çöküntülərin yığılması nəticəsində bəzi anbarlarda faydalı tutum 15-35 faiz azalmışdır. Böyük anbarlarda hər il orta hesabla 0,3-1 faiz, kiçik və orta həcmli anbarlarda isə 2-5 faiz tutum itkisi baş verir ki, bu da suyun az yığılmasına gətirib çıxarır. Məsələn, Varvara su anbarında təxminən 40 milyon kubmetr çöküntü toplanıb. Proqnozlaşdırılır ki, bu çöküntülərin təmizlənməsi nəticəsində ilkin

hesablamalara görə, tikinti və infrastruktur layihələrindən istifadə oluna biləcək 12,8 milyon kubmetr qum-çınqıl materialı əldə etmək mümkündür.

Qanunvericilikdə nəzərdə tutulmuş dəyişiklikdə digər mühüm istiqamət tunel və yol infrastruktur layihələrinin icrası zamanı çıxarılan süxurların istifadəsi ilə bağlıdır. Bir araşdırma apardıq və gördük ki, beynəlxalq təcrübədə belə materialların təqribən 70-90 faizinin təkrar istehsala qayıtması mümkündür. Məsələn, İsveçrənin “Gotthard” tunelində bu göstərici 80 faiz olmuşdur. Londonda isə bu, 85 faizdən çox olmuşdur ki, qazıntılar təkrar olaraq dövriyyəyə qayıtmışdı.

Respublikamızda həyata keçirilən infrastruktur layihələri, o cümlədən tunellərin və metro stansiyalarının tikintisi zamanı çıxarılan süxur kütləsinin iqtisadi dövriyyəyə cəlb olunması mineral xammal ehtiyatlarından səmərəli istifadəyə və dayanıqlı resurs idarəçiliyinin təmin edilməsinə əhəmiyyətli töhfə verə bilər.

Ümumilikdə, qanunda təklif olunan dəyişiklik uzun illər ərzində su anbarlarında, sututarlarda yığılmış qum, qum-çınqıl və gildən, həmçinin tunel çəkilişləri zamanı çıxarılan süxurlardan səmərəli istifadəni özündə ehtiva edir.

2024–2025-ci illərdə aidiyyəti dövlət qurumları tərəfindən birgə aparılmış monitorinqlər nəticəsində rekultivasiya məsələləri, yəni üçüncü hissə ilə bağlı qeyd etmək istəyirəm. Bir çox monitorinqin nəticələri onu göstərir ki, faydalı qazıntılar zamanı ətraf mühitə təsirin qiymətləndirilməsi kifayət qədər şəffaf aparılmamış, istismar sahələrində rekultivasiya üzrə layihələndirmə işləri görülməmiş, faydalı qazıntıların çıxarılması üzrə texniki layihələr tərtib edilməmiş və bir çox məsələlər üzə çıxmışdır. Bu da rekultivasiya məsələsini önə çıxarır. Bu qanun layihəsində həmin münasibətlər tənzimlənir.

Xüsusi olaraq qeyd etmək istərdim ki, bu qanun layihəsində dəyişiklikdən sonra, yəqin ki, hökumət yeni qaydalar müəyyən edəcək. Həmin qaydalar əsasında rekultivasiya işlərinə vəsaitin ayrılması bəri başdan təyin olunur. Çünki bir çox hallarda müəyyən işlər görüldükdən sonra rekultivasiya işləri görülmür. Nəzərə alsaq ki, süxurların və istifadə olunan materialların bir çoxu kənd təsərrüfatı təyinatlı torpaqlarda yerləşir, bu qanun layihəsi də həmin o torpaqların yenidən dövriyyəyə qaytarılmasına xidmət edir. Hesab edirəm ki, bu qanunun mahiyyəti kifayət qədər aydındır.

Bir misal da çəkmək istəyirəm. Aparılmış hesablamalara görə, ölkə üzrə mişar daşı istehsalı nəticəsində hər il 100-200 min ton istehsal tullantısı yaranır. Mövcud vəziyyətin təhlili də göstərir ki, tullantıların təxminən 50 faizi sement zavodları tərəfindən sement istehsalında istifadə olunsa da, digər 50 faizi torpaqların səmərəsiz, yararsız hala düşməsinə gətirib çıxarır.

Nəzərdə tutulan yeni qaydaların tətbiq olunacağı təqdirdə və bu qanunun qəbulundan sonra bu sahədə uçot və hesabatlılıq mexanizminin təkmilləşdirilməsinə, faydalı qazıntılardan səmərəli istifadənin təmin edilməsinə müsbət təsir edəcəyinə inanırıq. Bu səbəbdən qanun layihəsinin deputatlarımız tərəfindən müsbət səslə təsdiqlənməsinə dəvət edirik. Sağ olun.

**Sədrlik edən.** Sağ olun, Sadiq müəllim. Ətraflı məlumat verdiniz.

Razi müəllim, Sizin sualınız var, deyəsən. Buyurun.

**Razi Nurullayev.** Təşəkkür edirəm, xanım sədr. Çox gözəl qanun layihəsidir. Bəlkə də bu günə qədər oxuduqlarım, yəni səs verəcəklərim içərisində ən önəmlilərindən biridir. Buna görə də, xanım sədr, Sizə, zəhməti keçən hər bir kəsə və Sadiq müəllimə də təşəkkürümü bildirirəm.

Sualım isə budur. Bilirsiniz ki, qum-çınqıl karxanaları bağlanıb. Mən bunu oxudum, amma tam başa düşə bilmədim. Ona görə bu sualı verirəm. İndi yenidən qum-çınqıl karxanalarının açılması üçün bu qanunun qəbul olunması, dəyişiklik edilməsi əsas yaradırmı?

Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Asif Əsgərov. Buyurun.

**Asif Əsgərov.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri və media nümayəndələri. “Yerin təki haqqında” Azərbaycan Respublikasının Qanunu ölkəmizin təbii sərvətlərinin qorunması, onlardan səmərəli və məqsədyönlü istifadə olunması baxımından xüsusi əhəmiyyətə malik olan fundamental qanunvericilik aktlarından biridir. Bu qanun, ilk növbədə, onu təsbit edir ki, yerin təki dövlətin və xalqın sərvətidir. Bu sərvətlərdən istifadə yalnız milli maraqlar, iqtisadi səmərəlilik və ekoloji təhlükəsizlik prinsipləri əsasında həyata keçirilməli, gələcək nəsillərin hüquqlarına xidmət etməlidir. Bu qanunun əhəmiyyəti yalnız iqtisadi məsələlərlə məhdudlaşmır. Bu qanun həm də təbiətlə cəmiyyət arasında balansın qorunmasına xidmət edir. Çünki yeraltı resursların düzgün idarə olunmaması uzunmüddətli perspektivdə ciddi ekoloji problemlərə, torpaq itkilərinə və təbii tarazlığın pozulmasına səbəb olur. Bu baxımdan, bu gün müzakirə olunan qanuna edilən əlavələr mövcud qanunun daha da təkmilləşdirilməsinə, onun tətbiq mexanizmlərinin gücləndirilməsinə və dövlət nəzarətinin daha effektiv təmin olunmasına səbəb olacaqdır.

Hörmətli həmkarlar, hamımıza məlumdur ki, bəzi çaylarda çay yataqlarından qum və çınqıl materiallarının pərakəndə, sistemsiz, nəzarətsiz şəkildə çıxarılması müşahidə olunur. Bu isə ekoloji tarazlığın pozulması, çayların təbii axarının dəyişməsi, sahil eroziyası və ətraf ərazilər

üçün təhlükələrin yaranması, torpaq sahələrinin itirilməsi ilə nəticələnir. Buna misal olaraq Alazan çayı hövzəsində müşahidə olunan prosesləri göstərmək olar. Nəzarətsiz müdaxilə nəticəsində çayın məcrası dəyişir, torpaq sahələri risk altına düşür. Halbuki bu proseslər dövlət nəzarəti altında, elmi əsaslarla və planlı şəkildə həyata keçirilərsə, həm çay yataqları təmizlənər, həm daşqın riskləri azalar, həm də bu resurslar iqtisadi dövriyyəyə cəlb edilərək dövlətə və cəmiyyətə fayda verər.

Məhz buna görə qanun layihəsində yerin təkinin istifadəsinə icazə verilməsi qaydasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunması xüsusi əhəmiyyət daşıyır. Bu, yeraltı sərvətlərin istifadəsində vahid dövlət nəzarətini və şəffaflığı, qanunsuz fəaliyyətin və özbaşınalığın qarşısının alınmasını təmin edəcəkdir.

Digər mühüm məqamlardan biri isə su anbarlarında və su tutarlarında toplanan çöküntülərin, eləcə də tunellərin və keçidlərin tikintisi zamanı yerin təkinə qazılan süxurların istifadəsi ilə bağlı müddəaların qanunvericilikdə əks olunmasıdır. Bu dəyişikliklər həmin materialların səmərəli istifadəsinə imkan yaradacaq, təbiətə əlavə müdaxilələrin qarşısını alacaqdır. Bu isə ekoloji baxımdan son dərəcə mühüm və məsuliyyətli yanaşmadır.

Qanuna əlavə edilmiş 13.1-ci maddə – “Yerin təki sahələrinin rekultivasiyası” ilə bağlı müddəa bu sahədə məsuliyyət prinsipini daha da gücləndirən mühüm bir yenilikdir. Faydalı qazıntıların çıxarılması və ya digər qazıntı işləri başa çatdıqdan sonra pozulmuş torpaq sahələri texniki və bioloji tədbirlər vasitəsi ilə bərpa edilməli, əvvəlki vəziyyətinə və ya təyinatı üzrə istifadəyə yararlı hala qaytarılmalıdır. Bu, yalnız torpaq qatının bərpası deyil, eyni zamanda, həmin ərazilərin təhlükəsiz vəziyyətə gətirilməsi, ətraf mühit üçün yarana biləcək risklərin aradan qaldırılması və onların yenidən təsərrüfat dövriyyəsinə cəlb olunması deməkdir. Bu norma

bir daha göstərir ki, yerin təkinin istifadəsi yalnız hasilatla məhdudlaşmır, eyni zamanda, təbiətin bərpası və qorunması qanunvericilik səviyyəsində məcburi öhdəlik kimi müəyyən olunur. Bu o deməkdir ki, istifadə edən bərpa da etməlidir, faydalana bilirsənsə, qorumağı da bacarmalısan.

Bu qanuna edilən əlavələrin əhəmiyyətli istiqamətlərindən biri də yerin təkinin istifadəsi sahəsində rəqəmsal uçot və monitorinq sistemlərinin tətbiqinin genişləndirilməsidir. Hesab edirəm ki, yeraltı resursların çıxarılması, daşınması və istifadəsi vahid elektron platforma üzərindən izlənilməli, hər bir hasilat sahəsi üzrə real vaxt rejimində məlumatlar dövlət orqanlarına təqdim olunmalıdırlar.

Eyni zamanda, qeyd etmək istərdim ki, yerin təkinin istifadəsi məsələsinə yalnız resursların çıxarılması kimi deyil, həm də ərazilərin sosial və təsərrüfat təhlükəsizliyi prizmasından yanaşmaq vacibdir. Çünki nəzarətsiz və plansız qazıntı işləri bir çox hallarda kənddaxili yolların sıradan çıxmasına, suvarma kanallarına ziyan dəyməsinə və kənd təsərrüfatı dövriyyəsində olan torpaqların yararsız hala düşməsinə səbəb olur. Bu baxımdan, yerin təkinin istifadəsinin qanunla tənzimlənməsi yalnız iqtisadi deyil, həm də sosial sabitliyin qorunmasına xidmət edir, regionlarda yaşayan vətəndaşların mənafelərinin müdafiəsinə təminat yaradır və bir daha təsdiq edir ki, dövlətimiz öz təbii sərvətlərindən istifadə zamanı vətəndaş amilini və ətraf mühitin qorunmasını əsas prioritet kimi qəbul edir.

Hörmətli həmkarlar, bu qanun layihəsi yalnız yeraltı sərvətlərin istifadəsini tənzimləmir, eyni zamanda, nizam-intizam yaradır, dövlət nəzarətini gücləndirir, iqtisadi səmərəliliyi artırır və ekoloji tarazlığı qoruyur. Əminliklə demək olar ki, “Yerin təki haqqında” Qanuna təklif olunan bu əlavələr ölkəmizdə təbii sərvətlərin idarə olunması sahəsində yeni, daha məsuliyyətli və daha müasir mərhələlərinin başlanğıcı olacaq, iqtisadi

inkişafla ekoloji tarazlıq arasında düzgün balansın təmin edilməsinə mühüm töhfə verəcəkdir.

Qanun layihəsini dəstəkləyir və həmkarlarımı da dəstəkləməyə çağırıram. Sağ olun.

**Sədrlik edən.** Sağ olun, Asif müəllim.

Siyavuş Novruzov. Buyurun.

**Siyavuş Novruzov.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputatlar, çox vacib qanun layihəsidir, səs verəcəyəm. İlk növbədə, qeyd etmək istəyirəm ki, möhtərəm cənab Prezident "Naxçıvan Muxtar Respublikasında əhalinin içməli su ilə təminatının yaxşılaşdırılmasına dair əlavə tədbirlər haqqında" Sərəncam imzaladı. Sərəncamda suvarma suları ilə əlaqədar anbarların bərpası, təmizlənməsi və istifadəyə verilməsi, o cümlədən yeni artezian quyularının qarılması öz əksini tapıb. Bütün seçicilər adından bir daha təşəkkürümüzü bildiririk ki, Naxçıvan Muxtar Respublikasında suvarma suyu, içməli su problemi tamamilə aradan qaldırılacaqdır. Bu, yeni iş yerlərinin açılmasına da bilavasitə şərait yaradır. Eyni zamanda, bu onu göstərir ki, təkcə işğaldan azad edilən ərazilər deyil, ölkəmizin bütün regionlarında da investisiya layihələri, quruculuq-abadlıq işləri, infrastruktur layihələri davamlı olaraq həyata keçirilir.

Qanun layihəsi ilə əlaqədar qeyd etmək istərdim ki, burada müəyyən yerlər var, onlar strateji əhəmiyyət kəsb edir. Yerli su mənbələri, su anbarları mövcuddur ki, bunlar bizim bələdiyyələrin mülkiyyətindədir. Sadiq müəllim qanun layihəsini təqdim etdi. Burada bələdiyyələrə daxilolmalar necə olacaq? Hansı formada olacaq? Bundan istifadə zamanı gələcəkdə o məmulatlar çıxarılıb satıldıqda, təkrar istehsal olunduqda...

Vaxtı ilə yerli təbii məhsulların vergilərinin yığılması Dövlət Vergi Xidməti həvalə olundu. Belə qərar qəbul olundu ki, oradan gələn gəlirlərin

müəyyən hissəsi bələdiyyələrin büdcəsinə köçürülməlidir. Lakin sonradan bu dayandırıldı, heç bələdiyyələrin büdcəsinə köçürülmədi. İndi həmin təbii sərvətlərdən istifadə olunur, şirkət istifadə edir, Vergilər Nazirliyi vergi alır, amma onun bərpasını bələdiyyənin üzərinə qoyurlar. Çünki bələdiyyə torpağıdır, ərazisidir, bələdiyyənin mülkiyyətindədir. O baxımdan, bu, təkrar istehsal olunduqda, yaxud da bərpası ilə əlaqədar... Yəni istifadə olunan daş karxanalarından, su mənbələrindən əldə olunan gəlirlərdən bələdiyyəyə çatacaq vəsait nədən ibarət olacaqdır? Bunu öyrənmək istərdim.

Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Sadiq müəllim, yazılmısınız. Sual var idi. Razi müəllimlə Siyavuş müəllimin dediklərinə, bilmirəm, münasibət bildirəcəksinizmi, yoxsa yox. Sadiq Qurbanov. Buyurun.

**Sadiq Qurbanov.** Çox sağ olun. Həmkarlarıma dəstək verdikləri üçün təşəkkür edirəm. Eyni zamanda, suallar əmələ gəldi. İlk öncə, Razi müəllim deyir, karxanalar bağlanır. Bu bizim qanun layihəsinin mövzusu deyil. Amma bu gün və 2050-ci ilə qədər olan proqnozlara görə, ölkəmizdə su qıtlığının yaranacağını nəzərə almalıyıq. Bu gün çaylardan qanunsuz istifadə ilə ona gətirib çıxarmışıq ki, bəzən çayın ərazisinin 4 metrdən 40 metrə qədər qum-çınqıl hissəsini çıxarırlar. Su bir yerdən digər yerə axmaq üçün bəzən aylarca həmin qazıntı məcralarına dolur və onun üzərindən axır. Bu da bir çox təsərrüfatlarda su qıtlığına gətirib çıxarır. Təbii ki, burada şəffaflaşma, eyni zamanda, nəzarət mexanizmlərinin qurulması üçün proseslər gedir. Bunlar bağlanmır. Bağlanırsa, ölkədə tikinti sahəsində bu qədər inkişaf necə gedir? Sadəcə olaraq, müəyyən dəqiqləşdirmələr aparılır. Bu qanun da bir növ məhz ona xidmət edir.

Hörmətli Siyavuş müəllimin dediyi məsələ ilə bağlı. Bu gün çıxarılan, istifadə olunan hər bir materialdan mədən vergisi tutulur. Bu gün bu proses belə olacaq, mən qabaqcadan deyim. Qanun layihəsində yoxdur. Biz bunu araşdırmışıq ki, hansı formada işləyəcək. Tikinti aparan, daha doğrusu, süxur çıxaran, o cümlədən sututarlarını təmizləyən şirkət həmin ərazini bir çox şərtlərlə, tenderlə istifadə edəcək. Həmin əldə olunan materialın yenidən dövriyyəyə qayıtması üçün mədən vergisi təxminən 50 faiz miqdarında nəzərdə tutulur ki, dövlətə vergi ödənəcək. Əgər bələdiyyə bunu öz üzərinə götürəcəksə, təbii ki, həmin o vergidən qalan vəsait bələdiyyəyə çatacaq. Amma rekultivasiya məsələlərini nəzərdə tutursunuzsa, yəqin, bundan sonra təsdiq olunacaq qaydalarda rekultivasiya məsələlərində əvvəllər karxanalar... Sadə dildə deyək, daha aydın olsun: daşlar çıxarılır, sonra isə məlum olur ki, şirkət bankrot olub, oranı bərpa etməyə imkanı yoxdur. Beynəlxalq təcrübə də bunu göstərir ki, həmin şirkət bu işi görməmişdən əvvəl rekultivasiya məsələləri üçün vəsait ayırır, bəri başdan depozit qoyur. Əgər onun özü bunu etməyəcəksə belə, həmin vəsait hesabına ya bələdiyyə, ya da dövlət həmin rekultivasiya məsələlərini həyata keçirəcək.

Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Hörmətli həmkarlar, müzakirələr bitdi. İndi isə mən qanun layihəsini birinci oxunuşda səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.53 dəq.) |
|---|---|
| Lehinə | 113 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs verмədi | 1 |
| İştirak edir | 114 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, biz gündəliyin sonuncu məsələsinə keçirik. Bu məsələ “Avtomobil nəqliyyatı haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılmışdır. Komitənin rəyini bildirmək üçün mən sözü Azər müəllim Badamova verirəm. Azər müəllim, buyurun.

**Azər Badamov.** Təşəkkür edirəm. Hörmətli Sahibə xanım, hörmətli həmkarlar, “Avtomobil nəqliyyatı haqqında” Qanunun 1-ci, 14-cü, 15-ci və 27-ci maddələrinə əlavə və dəyişikliklərin edilməsi təklif olunur. Təklif olunan əlavə və dəyişikliklər sərnişinlərin və yüklərin daşınmasında təhlükəsizlik səviyyəsinin yüksəlməsinə, keyfiyyətli xidmətin göstərilməsinə xidmət edir, müxtəlif sığorta hadisələri zamanı sığorta olunanların, xüsusi ilə zərər çəkən sərnişinlərin qorunmasına, onların həyatına və sağlamlığına zərər dəyməsinə görə sığorta təminatı yaradır.

Təqdim olunan qanun layihəsi ilə ölkədaxili sifarişli daşımaların növü olan qeyri-müntəzəm sərnişin daşımalarına, eləcə də müntəzəm beynəlxalq və şəhərlərarası sərnişin daşımalarına münasibətdə icazənin alınması üçün aşağıdakı icbari sığortaların olmasını təsdiq edən sənədin mövcudluğu da tələb olunacaqdır: avtonəqliyyat vasitəsi ilə daşınan sərnişinlərin fərdi qəza sığortası, avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası, avtonəqliyyat vasitəsi sürücüsünün bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta.

Qeyd etmək lazımdır ki, bu tələblər bu qanunda avtomobil nəqliyyatı ilə sərnişin daşımalarını yerinə yetirən daşıyıcının vəzifəsi kimi müəyyən olunmuş, həmçinin həmin sığortaların icbariliyi “İcbari sığorta haqqında” və

“İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında” qanunlarda təsbit edilmişdir. Qeyd olunan sığortalar həmin fəaliyyətlərin həyata keçirilməsi zamanı hazırda da mövcud olmalıdır. Bu tələblərin əvvəlcədən, yəni icazə verilərkən mövcudluğunun təmin edilməsi isə bu normaların daha işlək olmasına, son nəticədə həmin tələblərə gündəlik fəaliyyətdə əməletmə səviyyəsinin yüksəlməsinə xidmət edəcəkdir.

Təklif olunan digər dəyişiklik qeyri-müntəzəm sərnişin daşımalarını yerinə yetirən avtonəqliyyat vasitələrinin texniki göstəricilərinin, daxili və xarici tərtibatının müvafiq tələblərinə uyğunluğu ilə bağlıdır. Dəyişikliklər çərçivəsində, həmçinin “daşıyıcı” anlayışı dəqiqləşdirilir.

Hörmətli həmkarlar, son illərdə avtomobil nəqliyyatı ilə sərnişin və yükdaşımalarının bütün növləri üzrə ciddi islahatlar həyata keçirilmiş, qanunvericilik təkmilləşdirilmiş, son nəticədə daşımaların keyfiyyəti yüksəldilmişdir. Görülən işlərin davamı olaraq avtomobil nəqliyyat ilə daşımanın bir növü olan ölkədaxili sifarişli daşımalar sahəsində, taksi, minik avtomobili ilə sərnişin daşımaları istisna olmaqla, qeyri-müntəzəm sərnişin daşımaları da ölkədaxili yükdaşımalarına aiddir. Xüsusi ilə bu fəaliyyətə icazə verilməsi sahəsində təkmilləşdirilmənin aparılmasına ciddi zərurət yaranmışdır.

Bir tərəfdən, qeyri-müntəzəm sərnişin daşımalarına tələbin artması, digər tərəfdən isə, bu nəqliyyat vasitələrinin iştirakı ilə ağır yol-nəqliyyat hadisələrinin baş verməsinin yüksək olması təklif olunan dəyişikliklərin edilməsini labüd edir. Hazırda ölkədaxili sifarişli daşımalara icazə buraxılış vəsiqəsinin verilməsi ilə həyata keçirilir. Ölkədaxili sifarişli daşımalara buraxılış vəsiqəsinin verilməsi üçün tələblər digər daşıma növləri ilə müqayisədə çox məhduddur və daha az sayda sənəd tələb olunur. Tələb

olunan sənədlər isə, əsasən, məlumat xarakterli sənədlərdir. Buraya ancaq buraxılış vəsiqəsi alan şəxsə dair məlumatlar, VÖEN, nəqliyyat vasitəsi üzərində hüquqları müəyyən edən sənədlər daxildir.

Təklif olunan dəyişiklik buraxılış vəsiqəsinin əldə olunması üçün əlavə tələblərin müəyyən edilməsini nəzərdə tutur. Bu tələblər sürücünün peşəkarlığının, sürücülük vəsiqəsinin kateqoriyasının, bu fəaliyyətlə məşğul olmağa uyğunluğunun, onun sağlamlıq vəziyyətinin və nəqliyyat vasitəsinin texniki vəziyyətinin qiymətləndirilməsinə xidmət edir. Qeyd etmək lazımdır ki, bu tələblər hazırda taksi ilə sərnişin daşımalarına və müntəzəm şəhərdaxili, şəhərlərarası sərnişin daşımalarına icazə verilməsi zamanı mövcuddur.

Sifarişli daşımalarda istifadə olunan nəqliyyat vasitələrinin orta yaşının 17,6 il olduğunu nəzərə aldıqda nəqliyyat vasitəsinin texniki baxışdan keçməsi ilə həmin nəqliyyat vasitələrinin daşımaq üçün təhlükəsinə tam şəkildə nəzarət etmək mümkün deyildir. Digər tərəfdən, nəzərə alınmalıdır ki, ən çoxu 5 sərnişin daşınan taksi, minik avtomobillərinə dair texniki, daxili və xarici tərtibatla bağlı tələblər olduğu halda, 10-dan çox sərnişin daşıyan sifarişli sərnişin daşımalarında bu tələblərin olmaması daha ciddi təhlükələrə yol aça bilir.

Hörmətli həmkarlar, qeyd etdiyim məsələləri nəzərə alaraq, qanun layihəsini təklif olunan əlavə və dəyişiklikləri dəstəkləməyinizi xahiş edirəm. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Azər müəllim.

Hörmətli həmkarlar, çıxışa heç kim yazılmayıb. Ona görə də mən səsverməyə keçirəm. Xahiş edirəm, bu qanun layihəsinə birinci oxunuşda münasibət bildirəsiniz. Buyurun.

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.00 dəq.) |
| Lehinə | 115 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 117 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, bizim iclasımız başa çatdı. Mən hamıya təşəkkür edirəm. Növbəti iclasımız ayın 27-də olacaq.

Sağ olun.

***EDİLMƏMİŞ ÇIXIŞLARIN MƏTNLƏRİ***

*24 fevral 2026-cı il*

**Anar Məmmədov.** 34 il əvvəl, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə bəşəriyyət tarixinə ən qanlı səhifələrdən biri yazıldı. Xocalıda törədilən cinayət təkcə bir şəhərin məhvi deyil, bütövlükdə, insanlığa, sivilizasiyaya və beynəlxalq hüquq normalarına qarşı yönəlmiş amansız bir terror aktı idi. Əslində, Xocalı faciəsi bir günün, bir gecənin hadisəsi deyildi. Ermənilər bu faciəyə Dağlıq Qarabağ münaqişəsi başladıqdan sonra hazırlıq görmüşdülər. Elə həmin vaxtdan da Xocalı qətliamının əsası qoyulurdu. Erməni faşistləri və onların havadarları aylarca mühasirədə saxladıqları Xocalı şəhərini 1992-ci il fevralın 25-dən 26-na keçən gecə yerlə-yeksan etdilər. Şəhərin dinc əhalisinə amansızlıqla divan tutuldu: 613 nəfər öldürüldü, 1275 nəfər əsir və girov götürüldü. Qətlə yetirilənlərin 63-ü uşaqlar, 106-sı qadınlar, 70-i qocalar idi. Soyqırımı nəticəsində 8 ailə tamamilə məhv edildi, 25 uşaq hər iki valideynini, 130 uşaq isə valideynlərindən birini itirdi. Girov götürülənlərdən 197-nin taleyi hələ də məlum deyil.

Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə Xocalı soyqırımına ilk dəfə siyasi-hüquqi qiymət verildi. Bu gün isə Prezident İlham Əliyevin rəhbərliyi ilə və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi “Xocalıya ədalət!” kampaniyası sayəsində dünya birliyi bu həqiqətləri daha yaxından tanıyır. Bir çox ölkələr və beynəlxalq təşkilatlar bu hadisəni rəsmən soyqırımı aktı kimi qəbul ediblər. Xocalı soyqırımının dünya miqyasında tanıdılması istiqamətində aparılan sistemli işin nəticəsidir ki, Xocalı soyqırımı bir çox ölkələrdə qəbul olunan parlament aktlarında tanınmışdır. Bosniya və Herseqovina, Kolumbiya, Çex Respublikası,

Honduras, İordaniya, Meksika, Pakistan, Panama, Peru, Sudan, Cibuti, Qvatemala, Paraqvay, Sloveniya, Şotlandiya, İndoneziya və Əfqanıstanın qanunverici orqanları tərəfindən müvafiq parlament qətnamələri qəbul edilmişdir. Xocalı soyqırımı ABŞ-nin 30-dan çox ştatının qanunvericilik qurumları və qubernator proklamasiyaları səviyyəsində tanınıb. 2013-cü ilin fevral ayında Qahirədə keçirilən İƏT İslam Zirvə Konfransının 12-ci sessiyasında qəbul olunan Yekun Kommünikedə üzv dövlətlər Xocalı soyqırımının tanınması istiqamətində zəruri səylər göstərməyə çağırılırlar. Avropa İnsan Hüquqları Məhkəməsi 2010-cu il 22 aprel tarixli qərarında Xocalının azərbaycanlılardan ibarət mülki əhalisinin qırılmasını "müharibə cinayətləri və ya insanlığa qarşı cinayətlər kimi qiymətləndirilə bilən xüsusilə ağır əməllər" kimi müəyyən etmişdir.

Uzun illər boyu Xocalı bizlər üçün həm də bitməyən bir intizar idi. Lakin 2020-ci ildə başlayan 44 günlük Vətən müharibəsi və 2023-cü ilin sentyabrındakı antiterror tədbirləri tarixin gedişatını dəyişdi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyəti və rəşadətli Azərbaycan əsgərinin canı-qanı bahasına bu gün Xocalı azaddır.

Şəhidlərimizin qisası döyüş meydanında alındı. Bu gün Xocalıda Azərbaycanın üçrəngli bayrağının dalğalanması həm qurbanlarımızın ruhuna ən böyük ehtiram, həm də xalqımızın sarsılmaz iradəsinin təntənəsidir. Artıq Xocalı bizim üçün təkcə kədər yeri deyil, həm də milli qürurumuzun və dirçəlişimizin simvoludur.

Biz Xocalını heç vaxt unutmayacağıq və unudulmasına imkan verməyəcəyik. Bu faciə bizim həm kədərimiz, həm də sarsılmaz milli birliyimizin rəmzidir. Gələcək nəsillər bilməlidir ki, müstəqilliyimiz hansı ağır sınaqlardan keçərək qazanılıb. Biz bir millət olaraq bu qanlı dərslərdən

nəticə çıxarmışıq. Güclü dövlət, güclü ordu və sarsılmaz xalq–iqtidar birliyi bizim gələcək faciələrdən sığortamızdır.

Radikal qrupların təxribatları Azərbaycanın qlobal sülh modelinə və diplomatik uğurlarına kölgə sala bilməz. Bu gün Azərbaycanın xarici siyasəti özünün ən parlaq dövrlərindən birini yaşayır. ABŞ Prezidenti Donald Trampın Ermənistan və Azərbaycan arasındakı sülhü dünyaya “ədalətli və hüquqa söykənən sülh modeli” kimi təqdim etməsi Prezident İlham Əliyevin apardığı uzaqgörən siyasətin və müzəffər Ali Baş Komandan kimi qazandığı tarixi Zəfərin beynəlxalq miqyasda birbaşa qəbul olunmasıdır. Məhz belə bir mühüm tarixi ərəfədə, dövlət başçısının ABŞ-yə səfəri zamanı bir qrup radikal ekstremistin törətdiyi hərəkətlər yalnız qeyri-əxlaqi deyil, həm də birbaşa milli maraqlara xəyanətdir.

Dünyanın supergüclərinin Azərbaycanın sülh modelini təqdir etdiyi bir vaxtda bu qrupların ortaya çıxması təsadüfi deyil. Onlar bu hərəkətləri ilə Azərbaycanın sivil və güclü dövlət imicinə zərər vurmağa çalışan xarici anti-Azərbaycan dairələrin əlində alətə çevrildiklərini sübut edirlər.

Küçə söyüşləri, təhqir və fiziki aqressiya heç bir halda söz azadlığı və ya siyasi müxalifətçilik deyil. Bu, aşkar şəkildə siyasi ekstremizmdir və bu cür davranışlar həmin şəxslərin nə qədər cılız bir təfəkkürə sahib olduqlarını göstərir. Dövlət başçısı xarici səfərlərində təkcə özünü deyil, Azərbaycan dövlətini və onun hər bir vətəndaşını təmsil edir. Bu baxımdan dövlət rəmzlərinə və ölkə rəhbərinə qarşı edilən hər bir hörmətsizlik, əslində, Azərbaycan xalqına və dövlətçiliyimizə qarşı yönəlmiş təhqirdir.

Azərbaycanın beynəlxalq nüfuzunun artdığı, mühüm qlobal məsələlərin həllində rol oynadığı bir vaxtda belə təxribatlara əl atanlar yalnız düşmən dəyirmanına su tökənlərdir. Onların bu hərəkətləri xaricdəki anti-Azərbaycan dairələrin sifarişi ilə həyata keçirilən çirkin bir ssenaridir.

**Azər Kərimli.** Bütövlükdə, Azərbaycan xalqına qarşı yönəldilmiş Xocalı soyqırımı öz ağlasığmaz qəddarlığı ilə bəşər tarixində vəhşilik aktıdır. Ulu Öndər Heydər Əliyevin bu qiyməti təkcə milli yaddaşın ifadəsi deyil, həm də hüquqi və mənəvi həqiqətin bəyanıdır. Xocalı faciəsi yalnız bir şəhərin taleyi deyil, iki əsrə yaxın davam edən etnik nifrət siyasətinin qanlı kulminasiyası, insanlığa qarşı törədilmiş cinayətin simvoludur.

1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri keçmiş Sovet ordusunun Xankəndidə yerləşən 366-cı alayının iştirakı ilə Xocalıya hücum etdi. Beynəlxalq humanitar hüququn bütün norma və prinsipləri kobud şəkildə pozuldu, mülki əhali məqsədli şəkildə hədəfə alındı. Şəhəri tərk etməyə çalışan dinc insanlar Naxçıvanlı və Pircamal kəndləri istiqamətində pusquya salındı, qadınlar, uşaqlar, ahıllar qətlə yetirildi, bir qismi əsir götürüldü, digərləri şaxtada donaraq həlak oldu.

Rəsmi statistikaya görə, 613 nəfər öldürüldü: 63 uşaq, 106 qadın, 70 ahıl. 8 ailə tamamilə məhv edildi, 25 uşaq hər iki valideynini itirdi, 150 nəfərin taleyi bu gün də naməlumdur. Xocalı təkcə insan itkisi ilə deyil, həm də mədəni-mənəvi irsə qarşı vandalizm aktı ilə üzləşdi: məktəblər, kitabxanalar, mədəniyyət ocaqları, tarixi abidələr yerlə-yeksan edildi. Bu hadisələr “soyqırımı” anlayışının BMT-nin 1948-ci il Konvensiyası ilə müəyyən edilmiş bütün elementlərini özündə ehtiva edir.

1994-cü ildə Milli Məclisin qərarı ilə 26 fevral “Xocalı soyqırımı günü” elan olundu. 1997-ci ildən etibarən hər il saat 17:00-da ölkə üzrə sükut dəqiqəsi keçirilir. Bu sükut unutqanlığa qarşı milli anddır, insanlığa səslənişdir.

Beynəlxalq müstəvidə Xocalı soyqırımı bir sıra ölkələrin parlamentləri, ABŞ-nin çoxsaylı ştatları və İslam Əməkdaşlıq Təşkilatı tərəfindən tanınıb. 2008-ci ildən Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın

təşəbbüsü ilə həyata keçirilən “Xocalıya ədalət!” kampaniyası isə bu həqiqətləri qlobal ictimai rəyə sistemli şəkildə çatdırır. “Justice for Khojaly” platforması faktların sənədləşdirilməsi və yayılmasında mühüm rol oynayır.

Prezident İlham Əliyevin sözləri ilə desək, “Biz Xocalısız ərazi bütövlüyümüzün tam bərpa olunduğunu hesab edə bilməzdik”. 2020-ci il Vətən müharibəsi və 2023-cü ilin sentyabrında həyata keçirilmiş lokal antiterror tədbirləri nəticəsində Xocalı separatçılardan təmizləndi. 2023-cü il oktyabrın 15-də Xocalıda Azərbaycan Bayrağının ucaldılması tarixi ədalətin bərpasının rəmzinə çevrildi.

Bu gün Xocalı yalnız faciənin deyil, dirçəlişin ünvanıdır. Şəhərdə Soyqırımı Memorial Kompleksi yaradılır, yaşayış binaları, məktəblər, infrastruktur bərpa olunur. Artıq yüzlərcə ailə doğma yurduna qayıdıb. Prezident İlham Əliyevin Xocalıya ardıcıl səfərləri, açılışlar, sakinlərlə görüşlər göstərir ki, yaddaş siyasəti bərpa siyasəti ilə paralel aparılır.

Fevralın 26-da saat 17:00-da ölkə boyu çökən sükut təkcə keçmişin ağrısına deyil, gələcəyin məsuliyyətinə də işarə edir. Bu sükutun içində Azərbaycan xalqının müqəddəs andı var: Xocalını unutmayacağıq, Xocalını unutdurmayacağıq!

**Bədəl Bədəlov.** XX əsrin sonlarında baş vermiş ən ağır faciələrdən biri olan Xocalı soyqırımı hər il ölkəmizdə dərin hüznlə yad edilir. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə törədilən bu qanlı soyqırımı insanlığa qarşı dəhşətli cinayətlərdən biri kimi tarixə düşüb.

Xocalı Qarabağ bölgəsində strateji əhəmiyyətə malik yaşayış məntəqələrindən biri idi. Şəhərin coğrafi mövqeyi, hava limanının burada yerləşməsi və bölgənin nəqliyyat yollarına nəzarət baxımından əhəmiyyəti bu ərazini hərbi baxımdan hədəfə çevirmişdi. 1992-ci ilin fevralında şəhər uzun müddət mühasirə şəraitində qalmışdı. Elektrik, ərzaq və tibbi yardım

çatışmazlığı dinc əhalinin vəziyyətini son dərəcə ağırlaşdırmışdı. Fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri keçmiş Sovet ordusunun Xankəndidə yerləşən 366-cı motoatıcı alayının iştirakı ilə şəhərə hücum etdi. Mühasirədə qalan əhali şəhəri tərk etməyə çalışsa da, qaçmağa çalışan insanlar pusquya salındı və amansız hücumlara məruz qaldılar. Qadınlar, uşaqlar və yaşlılar da daxil olmaqla yüzlərcə insan qətlə yetirildi, çoxlu sayda sakin yaralandı və əsir götürüldü.

Rəsmi məlumatlara görə, bu faciə nəticəsində 613 nəfər həyatını itirdi. Onların 63 nəfəri uşaq, 106 nəfəri qadın, 70 nəfəri isə yaşlı insanlar idi. Bir neçə ailə tamamilə məhv edildi, yüzlərcə uşaq valideynlərindən birini və ya hər ikisini itirdi. Yaralananların və əsir götürülənlərin sayı isə daha çox idi. Şəhər tamamilə dağıdıldı, minlərcə fərdi yaşayış binası, həmçinin məktəblər, mədəniyyət müəssisələri və sosial obyektlər yerlə-yeksan edildi. Tarixi abidələr və qəbiristanlıqlar da vandalizmə məruz qaldı. Bütün bunlar yalnız hərbi əməliyyat deyil, dinc əhaliyə qarşı planlı və sistemli zorakılıq olduğunu göstərirdi.

Xocalı faciəsinə siyasi və hüquqi qiymətin verilməsi sonrakı illərdə mühüm məsələyə çevrildi. 1994-cü il fevralın 24-də parlament tərəfindən qəbul olunan qərarla 26 fevral tarixi Xocalı soyqırımı günü elan edildi. Bu qərar hadisələrin mahiyyətinin dövlət səviyyəsində tanınması baxımından böyük əhəmiyyət daşıyırdı. Soyqırımı anlayışı beynəlxalq hüquqda xüsusi məna daşıyır. BMT Baş Assambleyasının qəbul etdiyi “Soyqırımı cinayətinin qarşısının alınması və ona görə cəzalar haqqında” Konvensiya hər hansı milli, etnik, irqi və ya dini qrupun tam və ya qismən məhv edilməsinə yönəlmiş hərəkətləri bu cinayət kateqoriyasına daxil edir. Xocalıda baş verən hadisələr həmin meyarların bir çoxuna uyğun gəlir və mülki əhaliyə qarşı məqsədli zorakılıq faktlarını ehtiva edir.

Son illər ərzində Xocalı soyqırımının beynəlxalq miqyasda tanıdılması istiqamətində geniş iş aparılıb. Bir sıra ölkələrin parlamentləri və müxtəlif beynəlxalq təşkilatlar faciə ilə bağlı sənədlər qəbul edib. Bu qərarlarda hadisələr pislənir və qurbanların xatirəsi yad edilir. Bundan başqa, İslam Əməkdaşlıq Təşkilatı da Xocalıda törədilən cinayətlərlə bağlı qətnamə qəbul edib. Həmin sənədlər faciənin dünya ictimaiyyətinə çatdırılması və hüquqi-siyasi qiymətin verilməsi baxımından mühüm rol oynayır.

Faciə barədə beynəlxalq məlumatlılığın artırılması məqsədi ilə müxtəlif təşəbbüslər həyata keçirilib. Bu təşəbbüslərdən biri də Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva tərəfindən 2008-ci ildə başladılan "Xocalıya ədalət!" kampaniyasıdır. Kampaniya dünyanın müxtəlif ölkələrində tədbirlər, sərgilər, konfranslar və məlumatlandırma layihələri vasitəsi ilə faciənin həqiqətlərini yaymağı qarşısına məqsəd qoyub. Həmin təşəbbüs qısa müddətdə geniş beynəlxalq dəstək qazanıb və yüz minlərcə insanın diqqətini cəlb edib. Kampaniyanın əsas məqsədi hadisələrə obyektiv yanaşmanın təmin edilməsi və qurbanların xatirəsinin yaşadılmasıdır.

Hər il fevralın 26-da paytaxtda yerləşən "Ana harayı" abidəsi önündə faciə qurbanlarının xatirəsinə həsr olunmuş anım mərasimləri keçirilir. On minlərcə insan həmin gün qurbanların xatirəsini ehtiramla yad edir. Bu mərasimlər yalnız xatirə tədbiri deyil, həm də tarixi yaddaşın qorunması və gələcək nəsillərə ötürülməsi baxımından böyük əhəmiyyət daşıyır.

2020-ci ildə baş verən Vətən müharibəsində Azərbaycan Ordusu 30 il işğal altında qalan torpaqları azad edərək yeni reallıq yaratdı. Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük müharibədə misilsiz igidlik nümayiş etdirən qəhrəman ordumuz Xocalı faciəsi qurbanlarının qisasını aldı. 2023-cü il sentyabrın 19-20-də

Azərbaycan Ordusu Qarabağda keçirdiyi lokal xarakterli antiterror əməliyyatı nəticəsində Xocalı şəhərini separatçılardan tamamilə azad etdi. 2023-cü il oktyabrın 15-də dövlətimizin başçısı İlham Əliyev Xocalı şəhərində Dövlət bayrağını ucaldaraq tarixi hadisəyə imza atdı.

Son illər ərzində Xocalıda həyatın yenidən bərpası istiqamətində mühüm addımlar atılır. İnfrastruktur layihələri həyata keçirilir, yaşayış məntəqələri bərpa olunur və məskunlaşma prosesi davam edir. Eyni zamanda, şəhərdə Xocalı Soyqırımı Memorial Kompleksi yaradılır. Bu kompleks faciə qurbanlarının xatirəsinin əbədiləşdirilməsi və hadisələrin gələcək nəsillərə çatdırılması baxımından mühüm mərkəz olacaqdır.

Xocalı soyqırımı tarixdə silinməyən bir faciə kimi qalır. Həmin hadisə yalnız keçmişin ağrılı xatirəsi deyil, həm də ədalət, yaddaş və insanlıq dərsidir. Bu faciənin dünya ictimaiyyəti tərəfindən tanınması isə hüquqi və mənəvi baxımdan önəm daşıyır.

**Elçin Mirzəbəyli.** Bizi Xocalı soyqırımının 34-cü ildönümündən cəmi 2 gün ayırır. Bu 34 ilin 28 ilini tarix boyu xalqımıza qarşı gerçəkləşdirilən soyqırımı cinayətlərinin ötən əsrin sonlarından etibarən daha geniş vüsət alan dəhşətlərinin doğurduğu ağrı-acıyla və üzərimizə dörd bir yandan yürüyən haqsızlığa qarşı mücadilə ilə keçirmişik.

İşğalın doğurduğu total haqsızlığa, ədalətsizliyə, soyqırımı cinayətlərinin davam etdirilməsi perspektivinə isə milli iradəmizin ifadəçisi Ali Baş Komandanın qətiyyətli liderliyi, ordumuzun rəşadəti və Azərbaycan xalqının sarsılmaz birliyi sayəsində son qoyulub. Yorulmadan “Xocalıya ədalət!” deyən Azərbaycan tarixi ədaləti həm döyüş meydanında, həm də ədalət məhkəməsində bərqərar edib.

Bu gün Ukraynada başladılan ədalətsiz müharibənin də 4-cü ildönümüdür.

34 il öncə Azərbaycan xalqına qarşı həyata keçirilən soyqırım aktlarına və dəhşətli cinayətlərə göz yumanlar, şimaldan, cənubdan, şərqdən, qərbdən müharibə canilərinə, terrorçulara, işğala, vandalizmə dəstək verənlər, “yaxşı işğalçı–pis işğalçı” geosiyasi əxlaqsızlığı ilə çıxış edənlər bu gün nə qədər ucadan bağırsalar da, arzuladıqları, umduqları nəticəni əldə edə bilmirlər. Çünki ortalıqda yenə maraqlar var. Çünki ədalət anlayışı bütövdür, tamdır və onun davamlı olaraq selektiv tətbiqi mümkün deyil. İndi dünyada baş verənlər vaxtı ilə Xocalı soyqırımına və xalqımıza qarşı həyata keçirilən neçə-neçə dəhşətli müharibə cinayətlərinə öz selektiv yanaşmaları ilə haqq qazandıranların yaratdıqları reallıqlardır. Bu reallıqların bir daha meydana gəlməməsi üçün ədalətsizliyə meydan açan düzənin özü dəyişməlidir.

Bu baxımdan, Azərbaycan Prezidentinin daha ədalətli dünya nizamı naminə nümayiş etdirdiyi qətiyyətli mövqenin, gücün sülhə və ədalətə xidmət edən Azərbaycan nümunəsini beynəlxalq münasibətlər sisteminin gündəminə daşımasının xalqların faciəsini, müharibə və münaqişələri öz korporativ maraqlarının əsirinə çevirən siyasi əxlaqsızların aşırı sarsıntı ilə qarşılamaları da təbii qəbul edilməlidir. Çünki 2019-cu ildə müqəddəs yurd yerlərimizdən birində – Şuşada işğalın davam etməsi üçün şam yandırdığını bəyan edən Frank Pallone və onunla birlikdə işğala şam tutanlar cəmi bir il sonra mədəniyyətimizin paytaxtının və digər ərazilərimizin rəşadətli Azərbaycan Ordusu tərəfindən azad olunacağını, karyera və qazanc mənbəyinə çevirdikləri qəsbkarlığın, separatizmin, terrorizmin qanlı caynaqlarının kəsiləcəyini gözləmirdilər. Ölkəmizə qarşı aqressiv təxribatların, hibrid informasiya savaşının daha qəzəbli xarakter almasının səbəblərini də təkcə işğalçıların deyil, işğalın davam etməsinə xidmət edənlərin rüsvayçı məğlubiyyətində axtarmaq lazımdır.

Biz təkcə xalqımıza qarşı törədilən soyqırımı cinayətlərini törədənləri deyil, bu cinayətlərin davamlı olmasına xidmət edən ikiüzlü siyasətçilərin, onların satqın siyasət və media oyuncaqlarının kimliklərini və xəyanətlərini heç vaxt unutmayacağıq.

**Jalə Əliyeva.** Bu günlərdə XX əsrin ən böyük insan faciələrindən olan Xocalının ildönümü ərəfəsindəyik. Tarixin elə səhifələri var ki, onlar heç vaxt bağlanmır. Onlar yalnız yazılmır, həm də xalqın yaddaşına əbədi həkk olunur. Xocalı faciəsi də məhz belə bir tarixdir – susmayan, unudulmayan, illər keçsə də ürəklərdə qanayan bir yara.

1992-ci ilin fevralında Xocalı yalnız işğal edilmədi, o, insanlığın gözü qarşısında məhv edildi. Körpələrin ümidləri yarımçıq qaldı, anaların fəryadı səmaya yüksəldi, ataların arzuları qan içində susduruldu. Bu faciə Azərbaycan xalqının yaddaşına əbədi həkk olundu. Xocalı bir ağrı, bir dərd, bir haray oldu. Amma tarix bununla bitmədi.

Xocalı həm də intiqamı alınan, qüruru qaytarılan bir yaddaşa çevrildi. Uzun illər Azərbaycan xalqı bu ağrı ilə yaşadı, lakin heç vaxt ümidini itirmədi. Xalq öz liderinin ətrafında birləşdi. Məhz İlham Əliyevin qətiyyətli rəhbərliyi ilə Azərbaycan dövləti gücləndi, ordumuz qüdrətləndi, milli ruh daha da möhkəmləndi.

2020-ci ildə başlayan Vətən müharibəsi yalnız torpaq uğrunda döyüş deyildi. Bu, həm də Xocalıda yarım qalan ədalətin bərpası idi. Azərbaycan əsgəri 30 illik həsrətə son qoydu. İşğal altında olan torpaqlar azad edildi. Qarabağın incisi olan Şuşa azad olundu. Azərbaycan Bayrağı yenidən doğma torpaqlarda dalğalandı. Bu, təkcə hərbi qələbə deyildi. Bu, tarixi ədalətin Zəfəri idi. Bu, şəhidlərin ruhunun rahatlıq tapması idi. Bu, Xocalıda donan körpələrin haqqının bərpası idi.

Bəli, bu gün Azərbaycan xalqı qalib xalqdır. Bu gün Xocalının ruhu şaddır. Çünki o torpaqlar artıq azaddır. Çünki o qan yerdə qalmadı. Çünki o faciənin qisası döyüş meydanında alındı.

Prezident İlham Əliyevin dediyi kimi: "Biz qalib gəldik, düşməni məğlub etdik və tarixi ədaləti bərpa etdik". Xocalı artıq yalnız faciənin simvolu deyil. Xocalı həm də Zəfərin simvoludur. Bu gün o bizə həm ağrını xatırladır, həm də gücümüzü.

Xocalı sübut etdi ki, Azərbaycan xalqı heç vaxt sınmır, sınmayacaq. Azərbaycan xalqı heç vaxt unutmur, unutmayacaq. Azərbaycan xalqı heç vaxt məğlub olmur, bundan sonra da heç vaxt məğlub olmayacaq. Öz lideri, müzəffər Ali Baş Komandan, xilaskar Prezident İlham Əliyevlə birlikdə inamla irəlilədiyi yolda Azəeərbaycan xalqını hələ çox zəfərlər gözləyir.

**Kamal Cəfərov.** Təklif olunan dəyişikliklər Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində cərimə növündə cəzanın icrasını daha sistemli şəkildə tənzimləməyə xidmət edir. Mövcud redaksiyada prioritetlik ardıcıllığının qeyri-dəqiq ifadəsi icra mərhələsində müxtəlif yanaşmalara və praktiki çətinliklərə səbəb olurdu.

Yeni redaksiyada cərimənin ilk növbədə məhkumun əməkhaqqına və ya başqa qazancına yönəldilməsi açıq şəkildə təsbit edilir. Bu yanaşma proporsionallıq və sosial ədalət prinsiplərinə daha uyğundur. Çünki cərimə cəzasının mahiyyəti şəxsin azadlığının deyil, maddi məsuliyyətinin təmin edilməsidir. Əməkhaqqına yönəltmə cəzanın icrasını təmin etməklə bərabər, məhkumun və ailəsinin yaşayış minimumuna kəskin müdaxilənin qarşısını alır.

Əməkhaqqı və ya digər qazanc kifayət etmədikdə əmlaka yönəltmənin tətbiqi və bu zaman "İcra haqqında" Qanunun müvafiq müddəalarına istinad edilməsi normativ bazanın vahidliyini və hüquqi texnikanın düzgünlüyünü

təmin edir. Bu, icra məmurlarının fəaliyyətində hüquqi boşluqların və kolliziyaların qarşısını alacaq.

26-cı maddəyə edilən dəqiqləşdirmə isə anlayışların terminoloji baxımdan uzlaşdırılması məqsədi daşıyır. “Digər qazancı” ifadəsinin çıxarılması və konkret olaraq “əməkhaqqı və ya başqa qazancı” anlayışının göstərilməsi müəyyənliyi artırır və şərh imkanlarını daraldır.

Nəticə etibarı ilə bu dəyişikliklər cərimə cəzasının icrasını daha çevik, ədalətli və hüquqi baxımdan əsaslandırılmış mexanizmə çevirir, eyni zamanda, insan hüquqlarının müdafiəsi ilə dövlətin icra maraqları arasında balansı təmin edir.

***

Təklif olunan dəyişikliklər Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 157.9-cu maddəsinin və “Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında” Qanunun 3-cü maddəsinin təkmilləşdirilməsinə yönəlmişdir və strateji nəqliyyat infrastrukturunun hüquqi təminatını gücləndirmək məqsədi daşıyır.

Mülki Məcəllənin 157.9-cu maddəsinə dəniz limanlarının ərazisinin artırılması, dövlət mülkiyyətində olan hava limanlarının (aeroportların) və aerodromların genişləndirilməsi, habelə yeni hava limanlarının və aerodromların inşasının açıq şəkildə əlavə edilməsi hüquqi müəyyənlik prinsipinə xidmət edir. Hazırda norma, əsasən, tikinti anlayışı ilə məhdudlaşır. Halbuki müasir dövrdə liman və hava nəqliyyatı infrastrukturu yalnız tikinti deyil, həm də genişləndirmə və ərazi artımı kimi kompleks tədbirləri əhatə edir. Bu dəyişiklik dövlət ehtiyacları naminə torpaq münasibətlərində mümkün mübahisələrin qarşısını almağa yönəlib.

“Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında” Qanuna 3.1.6-cı maddənin əlavə edilməsi sistemlilik baxımından vacibdir. Dövlət

mülkiyyətində olan hava limanlarının və aerodromların genişləndirilməsi və ya yenilərinin inşasının ayrıca dövlət ehtiyacı kimi tanınması normativ bazada boşluğu aradan qaldırır. Bu, strateji əhəmiyyətli nəqliyyat qovşaqlarının inkişafını sürətləndirəcək və investisiya mühitinə müsbət təsir göstərəcək.

Qeyd olunan dəyişikliklər regional nəqliyyat-logistika imkanlarının genişlənməsi, tranzit potensialının artırılması və beynəlxalq hava əlaqələrinin möhkəmləndirilməsi baxımından da mühüm əhəmiyyət kəsb edir. Hüquqi çərçivənin dəqiq müəyyən edilməsi dövlət və mülkiyyətçi maraqları arasında balansın qorunmasına xidmət edəcəkdir. Bu baxımdan təklif olunan əlavələri məqsədəuyğun və zəruri hesab edirəm.

***

Təklif edilən dəyişikliklər “Avtomobil nəqliyyatı haqqında” Azərbaycan Respublikası Qanununu daha sistemli və preventiv xarakterli nəzarət modelinə uyğunlaşdırır. Əlavə edilməsi nəzərdə tutulan maddələr nəqliyyat təhlükəsizliyi sahəsində məsuliyyətin fərdiləşdirilməsi və institusional nəzarətin gücləndirilməsi baxımından vacib əhəmiyyət daşıyır.

İlk növbədə, sürücünün narkotik sərxoşluq vəziyyətinin və psixotrop maddə istifadəsinin tibbi müayinə yolu ilə müəyyən edilməsinə dair məlumatların tələb olunması yol hərəkəti təhlükəsizliyinin təminində preventiv hüquqi alət kimi çıxış edir. Bu norma inzibati məsuliyyətin tətbiqini asanlaşdıraraq ictimai təhlükəsizliyin qorunmasına xidmət edir.

Reysqabağı texniki və tibbi yoxlamaların sənədləşdirilməsi öhdəliyi formal xarakter daşımamalı, real nəzarət alətinə çevrilməlidir. Müqavilə əsasında xidmətlərdən istifadə imkanının ayrıca göstərilməsi bazar subyektləri üçün sübutetmə yükünü aydınlaşdırır.

Ümumi istifadədə olan avtomobil nəqliyyatı sürücülərinin xüsusi hazırlıq keçməsini təsdiq edən sənədlərin tələb olunması peşəkar standartların vahidləşdirilməsinə və xidmət keyfiyyətinin artırılmasına yönəlmişdir.

Xüsusi ilə qeyri-müntəzəm sərnişin daşımaları üzrə sığorta tələblərinin konkretləşdirilməsi sosial risklərin minimallaşdırılmasına xidmət edir. Fərdi qəza sığortası və mülki məsuliyyətin icbari sığortalanması zərərin əvəzinin təmin edilməsində hüquqi təminatı gücləndirir.

Bu dəyişikliklər şəffaflıq və ictimai təhlükəsizlik prinsiplərinə uyğun olmaqla, nəqliyyat sektorunda intizamı və məsuliyyət mədəniyyətini artıracaq.

**Könül Nurullayeva.** Azərbaycan xalqının tarixinə 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalı faciəsi kimi daxil olmuşdur. Ermənistan silahlı qüvvələri bütün beynəlxalq hüquq normalarına zidd olaraq keçmiş Sovet ordusunun Xankəndi şəhərində yerləşən 366-cı motoatıcı alayının şəxsi heyətinin iştirakı ilə yatan şəhərə hücum edərək azərbaycanlılara qarşı soyqırımı aktı törətmişlər.

Bu hərbi təcavüz zamanı Xocalı ağır hərbi texnikadan açılan şiddətli atəşlər nəticəsində darmadağın edilmiş, dinc sakinlərə amansızcasına divan tutulmuşdur. Bir neçə saat ərzində 613 soydaşımız, o cümlədən 106 qadın, 63 uşaq və 70 qoca xüsusi qəddarlıqla qətlə yetirilmiş, meyitlər üzərində təhqiredici hərəkətlərə yol verilmişdir. Həmin kütləvi qırğın həyata keçirilərkən 8 ailənin həyatına son qoyulmuş, 25 uşaq hər iki valideynindən, 130 uşaq isə valideynlərinin birindən məhrum edilmiş, 487 dinc Xocalı sakini ağır yaralanmış və 1275 nəfər girov götürülmüşdür. Girov götürülənlərdən 150 nəfərin taleyi indiyədək məlum deyil.

İşğalın nəticəsində Xocalı şəhərində 105 sosial-məişət obyekti, 3200 fərdi yaşayış binası, 14 məktəb, 21 klub, 29 kitabxana, 3 mədəniyyət evi və

1 tarix-diyarşünaslıq muzeyi dağıdılmışdır. Şəhərdə XIV-XV əsrə aid türbələr, günbəzlər, məzarlar yerlə-yeksan olunmuş, qəbiristanlıq vandallara xas üsullarla dağıdılmışdır.

Xocalı faciəsinin Azərbaycan xalqının qan yaddaşı olduğunu dəfələrlə bəyan etmiş Ulu Öndər Heydər Əliyev hadisələrə beynəlxalq aləmdə əsl siyasi qiymətin verilməsinin zəruriliyini vurğulamış, bu məsələnin dünya ictimaiyyətinə çatdırılması üçün xüsusi səy göstərmişdir. Ulu Öndərin təşəbbüsü ilə 1994-cü il fevralın 24-də Milli Məclis “Xocalı soyqırımı günü haqqında” Qərar qəbul etmişdir. Ümummilli Liderimiz bu faciəni xalqımızın böyük dərdi, kədəri və qəmi adlandırmış, eyni zamanda, xalqımızın əsrlər boyu keçdiyi mübarizəni şanlı və uğurlu yol kimi dəyərləndirmişdir. Ulu Öndərin 1997-ci il 25 fevral tarixli Sərəncamı ilə hər il fevral ayının 26-sı saat 17:00-da Azərbaycan Respublikasının ərazisində Xocalı soyqırımı qurbanlarının xatirəsinə ehtiram əlaməti olaraq sükut dəqiqəsi elan edilmişdir.

Xocalı həqiqətlərinin dünyaya çatdırılması istiqamətində Heydər Əliyev Fondunun gördüyü işləri xüsusi minnətdarlıq hissi ilə qeyd etmək lazımdır. Fondun gərgin fəaliyyəti nəticəsində dünya ölkələri erməni silahlı birləşmələrinin törətdiyi Xocalı soyqırımı haqqında daha dolğun məlumatlandırılmışdır. Bir sıra dövlətlər və beynəlxalq təşkilatlar bu cinayətin əsl mahiyyətini anlayaraq qətliamı kəskin şəkildə pisləmişdir.

Bu vaxta qədər Bosniya və Herseqovina, Kolumbiya, Çex Respublikası, Honduras, İordaniya, Meksika, Pakistan, Panama, Peru, Sudan, Cibuti, Qvatemala, Paraqvay, Sloveniya, Şotlandiya, İndoneziya və Əfqanıstanın qanunverici orqanları tərəfindən müvafiq parlament qətnamələri qəbul edilmişdir. Xocalı soyqırımı ABŞ-nin 30-dan çox ştatı səviyyəsində də tanınmışdır.

2013-cü ilin fevral ayında Qahirədə keçirilən İƏT-in 12-ci İslam Zirvə Konfransında qəbul olunan Yekun Kommünikedə üzv dövlətlər Xocalı soyqırımının tanınması istiqamətində səylər göstərməyə çağırılmışdır. Avropa İnsan Hüquqları Məhkəməsi 2010-cu il 22 aprel tarixli qərarında Xocalının azərbaycanlı mülki əhalisinin qırılmasını “müharibə cinayətləri və ya insanlığa qarşı cinayətlər kimi qiymətləndirilə bilən, xüsusi ilə ağır əməllər” kimi müəyyən etmişdir.

Hazırda xarici ölkələrdə Xocalı soyqırımı qurbanlarının xatirəsinə ucaldılmış 10 abidə mövcuddur. Hər il Bakıda “Ana harayı” abidəsi önündə minlərcə insanın iştirakı ilə anım mərasimləri keçirilir.

2020-ci il Vətən müharibəsində Azərbaycan Ordusu 30 il işğal altında qalan torpaqlarımızı azad etməklə yeni reallıq yaratmışdır. 44 günlük müharibədə göstərilən misilsiz igidlik nəticəsində ərazi bütövlüyümüz bərpa olunmuş, Xocalı şəhidlərinin də qisası alınmışdır. Xocalı şəhəri 2023-cü il sentyabrın 19-20-də həyata keçirilən lokal xarakterli antiterror tədbirləri nəticəsində separatçılardan təmizlənmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2023-cü il oktyabrın 15-də Xocalı şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaltmışdır. Bu gün Xocalı şəhəri və ətraf ərazilər genişmiqyaslı bərpa və quruculuq işləri ilə inkişaf edir. Müasir infrastruktur qurulur, yaşayış binaları, məktəblər və yol şəbəkəsi yenidən tikilir. Əsas məqsəd sakinlərin təhlükəsiz və ləyaqətli qayıdışını təmin etməkdir.

Ötən dövr ərzində cənab Prezidentin Xocalıya 11 səfəri olmuş, bu səfərlər çərçivəsində doğma yurdlarına köçürülmüş sakinlərlə görüşlər keçirilmişdir.

Bu gün Xocalı yalnız keçmişin faciəsi deyil, həm də gələcəyə ünvanlanan bir çağırışdır. Xocalı həqiqətlərinin unudulmaması və

beynəlxalq hüquqi-siyasi müstəvidə tam ədalətli qiymətini alması hər birimizin mənəvi borcudur. Tarixi yaddaşını qoruyan xalq heç vaxt məğlub olmur.

Hesab edirəm ki, qarşıdakı dövrdə əsas vəzifəmiz Xocalını təkcə bərpa olunmuş şəhər kimi deyil, həm də sülhün, ədalətin və milli dirçəlişin rəmzinə çevirməkdir. Gənc nəsil Xocalı həqiqətlərini dərindən bilməli, tarixdən nəticə çıxarmalı və gələcəkdə belə faciələrin təkrarlanmaması üçün həmrəy olmalıdır.

Xocalı şəhidlərinin əziz xatirəsi daim qəlbimizdə yaşayacaq. Onların ruhu qarşısında baş əyir, Allahdan bütün şəhidlərimizə rəhmət diləyirik.

**Malik Həsənov.** İki yüz ildən çox müddətdə erməni millətçilərinin xalqımıza qarşı apardığı soyqırımı siyasətinin qanlı səhifəsi olan Xocalı faciəsindən 34 il keçir. Zaman hadisələrin düzgün dəyərləndirilməsində, təhlilində zəngin mənbədir. Xocalı faciəsi yaddaşlardan heç zaman silinməyəcək. Bu, təkcə Azərbaycan xalqına qarşı soyqırımı deyildi, bəşəriyyətə, insanlığa qarşı törədilmiş qanlı cinayət idi. Bu soyqırımı nəticəsində 613 nəfər öldürülüb. Onlardan 63-ü uşaq, 106-sı qadın, 70-i isə ahıl idi. 8 ailə tamamilə məhv edilib. 56 nəfər xüsusi qəddarlıqla, diri-diri yandırılaraq, başının dərisi soyularaq, boynu vurularaq, gözləri çıxarılaraq öldürülüb. 27 ailənin yalnız 1 üzvü qalıb. 25 uşaq hər iki valideynini, 130 uşaq isə valideynlərindən birini itirib. 487 insan şikəst olub. 1275 insan əsir götürülüb. 1165 nəfəri daha sonra girovluqdan azad etmək mümkün olub. 150 nəfərin taleyindən indiyə kimi heç bir məlumat yoxdur. Azərbaycan xalqının XX əsrdə üzləşdiyi dəhşətli Xocalı faciəsi yalnız Holokost soyqırımı kimi insanlıq tarixinə düşmüş qanlı faciə ilə müqayisə oluna bilər. Bu cinayət aktı beynəlxalq aləmdə öz hüquqi qiymətini almalıdır. Azərbaycan dövləti erməni millətçilərinin xalqımıza qarşı törətdiyi

cinayətlərin, o cümlədən Xocalı faciəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, onun soyqırımı kimi tanıdılması üçün məqsədyönlü və ardıcıl iş aparır.

Ümummilli Lider Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra Xocalı faciəsinə hüquqi-siyasi qiymət verildi: 1994-cü ildə Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan parlamenti 26 fevralı Xocalı Soyqırımı Günü kimi elan etdi. Ümummilli Liderin 1997-ci il 25 fevral tarixli Sərəncamı ilə Xocalı soyqırımı qurbanlarının xatirəsini yad etmək məqsədi ilə hər il fevral ayının 26-sı saat 17:00-da Azərbaycan ərazisində Xocalı soyqırımı qurbanlarının xatirəsinə ehtiram əlaməti olaraq sükut dəqiqəsi elan edilib. Hər il bu müdhiş faciənin ildönümü ölkəmizdə və dünyanın müxtəlif ölkələrində ürəkağrısı ilə qeyd olunur.

Faciə ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın xidmətləri böyükdür. Fondun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə 2008-ci ildən həyata keçirilən “Xocalıya ədalət!” beynəlxalq kampaniyası çərçivəsində də hər il silsilə tədbirlər reallaşdırılır. Onu da qeyd edək ki, Xocalı soyqırımı bir çox ölkələrdə qəbul olunan parlament aktlarında tanınmış və xatırlanmışdır. Bu vaxtadək 18 ölkənin (Bosniya və Herseqovina, Kolumbiya, Çex Respublikası, Honduras, İordaniya, Meksika, Pakistan, Panama, Peru, Sudan, Cibuti, Qvatemala, Paraqvay, Sloveniya, Şotlandiya, İndoneziya, Əfqanıstanın, Bolqarıstan) qanunverici orqanı, həmçinin ABŞ-nin 24 ştatı tərəfindən müvafiq parlament qətnamələri qəbul edilib. 2012-ci ildə Cibutidə keçirilmiş İslam Əməkdaşlıq Təşkilatının Xarici İşlər Nazirləri Şurasının 39-cu sessiyasında Xocalıda törədilmiş cinayətləri soyqırımı kimi tanıyan qətnamə qəbul

edilmişdir. 2013-cü ilin fevral ayında isə Qahirədə keçirilən İƏT İslam Zirvə Konfransının 12-ci sessiyasında qəbul olunan Yekun Kommünikedə üzv dövlətlər Xocalı soyqırımının tanınması istiqamətində zəruri səylər göstərməyə çağırılırlar. Hazırda xarici ölkələrdə Xocalı soyqırımı qurbanlarının xatirəsinə ucaldılmış 10 abidə mövcuddur.

Bu gün Xocalı şəhidlərinin ruhları şaddır. Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuz 44 günlük İkinci Qarabağ müharibəsində tarixi Zəfərə imza atdı, eləcə də bir günlük antiterror tədbirləri nəticəsində suverenliyimiz tam bərpa edildi. 30 ilin işğalına, torpaq həsrətimizə son qoyuldu. 2023-cü il oktyabrın 15-də müzəffər Ali Baş Komandan İlham Əliyev Xankəndidə, Xocalıda, Xocavənddə, Ağdərədə Azərbaycan Bayrağını ucaltdı. Prezident İlham Əliyev 2024-cü ilin yanvarında yerli televiziya kanallarına müsahibəsində "Xocalıda bayrağı qaldıranda fikirləşirdim, bax, bu gün biz tam əminliklə deyə bilərik ki, Xocalı qurbanlarının qanı yerdə qalmadı. Xocalıda bayrağın qaldırılması daha da həyəcanlı idi, onu açıq deyə bilərəm. Xankəndidə isə bayrağın qaldırılması ədalətin tam bərpası idi və Zəfərimizin son nöqtəsi idi" söyləyərək onu da əlavə etmişdir ki: "Bunlar tarixi anlardır. Biz hamımız xoşbəxtik ki, bu dövrdə yaşayırıq, bu dövrün şahidləriyik, bu böyük Zəfərin əldə olunmasında iştirak etmişik. Hərə öz yerində, siz media nümayəndələri kimi, mən Ali Baş Komandan kimi, xalqımızın bütün təbəqələri öz işi ilə bu qələbəni yaxınlaşdırırdılar. Bu, ümummilli bir məsələyə çevrildi, ümummilli hərəkata çevrildi".

Tarixi Zəfərimizin, suverenliyimizin tam bərpasının yaratdığı reallıqlar fonunda Böyük Qayıdış proqramı uğurla icra edilir. Digər azad edilmiş ərazilərimiz kimi, Xocalı şəhəri, həmçinin kəndlər yenidən qurulur, bərpa edilir. Xocalı şəhəri çox qısa zamanda, 8 ay ərzində sakinlərinə qovuşdu.

2024-cü il 28 May – Müstəqillik Günündə Böyük Qayıdış Proqramının Xocalı səhifəsi yazıldı. Prezident İlham Əliyev, Birinci xanım Mehriban Əliyeva və qızları Arzu Əliyeva Xocalı şəhərinə köçən ilk sakinlərlə görüşdülər. Sakinlərlə söhbət zamanı dövlətimizin başçısı İlham Əliyev vurğuladı: “Bu gün, bax, burada – Xocalıda, cəmi 8 ay ərzində bərpa edilmiş Xocalıda görüşməyimiz, əlbəttə ki, xüsusi məna daşıyır. Məhz Müstəqillik Günündə mən sizinlə yenidən görüşmək istəmişəm. Üç ay bundan əvvəl – fevralın 26-da hər birimiz üçün faciəli gündə Xocalıda Memorial Kompleksin təməlini qoyduq. Bu gün isə artıq xocalılılar qayıdır və şəhər də göz oxşayır”.

Cənab İlham Əliyevin ötən dövr ərzində Xocalıya 11 səfəri olub. Hər bir səfər zamanı mühüm sosial obyektlərin açılışı və təməlqoyma mərasimləri keçirilib. Bərpa-quruculuq işlərinin miqyası Böyük Qayıdışın davamlılığında özünün aydın ifadəsini tapır. Prezident İlham Əliyev ötən il sentyanrın 15-də Xocalı rayonunun Badara kəndində Badara, Daşbulaq, Seyidbəyli və Şuşakənd kəndlərinin sakinləri ilə görüşdü. Bu görüş də tariximizin qürurverici səhifələrindən oldu. Belə ki, dövlətimizin başçısı İlham Əliyev görüşdə bir daha bildirdi ki: “Əzab-əziyyət, ədalətsizlik, haqsızlıq arxada qaldı. Azərbaycan dövləti sizin üçün bütün şəraiti yaradıb. Ən önəmlisi isə siz və sizin davamçılarınız doğma Qarabağ diyarında artıq əbədi yaşayacaqsınız. Bu, ədalətin təntənəsidir. Biz ədaləti, ilk növbədə, öz haqqımızı bərpa etdik, erməni işğalına son qoyduq”.

Xocalı şəhəri və kəndlərinin məskunlaşması davam edir. 2026-cı il 19 yanvar tarixinə qədər Xocalı şəhəri və kəndlərinə cəmi 881 ailə, 3602 nəfər köçürülüb. Təbii ki, bu, son rəqəm deyil. Bərpa-quruculuq işləri geniş miqyası ilə diqqətdədir. Bircə faktı qeyd etmək kifayətdir ki, Böyük Qayıdış proqramının birinci mərhələsinin başa çatacağı 2026-cı ilin sonunadək 8

şəhərin sakinlərinə qovuşması hədəflənmişdir. Artıq cari ilin əvvəlində bu hədəf reallığa çevrildi. Belə ki, Füzuli, Laçın, Cəbrayıl, Kəlbəcər, Şuşa, Xocalı, Ağdam şəhərlərinin sırasına bu il yanvarın 21-də Xankəndi şəhəri də yazıldı. Dövlətimizin başçısı İlham Əliyevin qeyd etdiyi kimi: “Onlar şəhər və kəndlərimizi yerlə-yeksan etmişdilər, biz isə qurub-yaradırıq. Bütün Qarabağ, bütün Şərqi Zəngəzur tikinti meydançasıdır”.

**Nigar Arpadarai.** Ölkədə kinematoqrafiyanın inkişafı həm mədəni, həm sosial, həm də iqtisadi baxımdan böyük əhəmiyyət daşıyır. Bu qanun layihəsində nəzərdə tutulan müddəalarla Azərbaycanda xarici filmlərə güzəştlər tətbiq edə bilməsi üçün bir mexanizmin əsasını yaradır. Yəni xarici prodüserlərin Azərbaycan ərazisində film çəkməsi təşviq olunur və onların kino istehsalına çəkilən xərclərin bir hissəsi üzrə kompensasiya almaları, məbləğin qismən ödənilməsi nəzərdə tutulub. Bu, inkişaf etmiş və geniş yayılmış beynəlxalq praktikadır, bir çox ölkələrdə mövcuddur.

Belə mexanizmin uğurlu nümunələrindən biri Böyük Britaniyadır. Onlar təxminən 20 il əvvəl bu tip güzəştləri tətbiq etdilər və nəticədə nəhəng bir kino sənayesi formalaşdırdılar. Məhz bu güzəştlər hesabına irimiqyaslı seriallar çəkildi. Faktiki olaraq Britaniya oxşar mexanizmi düzgün tətbiq etməklə Hollivud prodüserliyinin böyük bir hissəsini öz ərazisinə cəlb edə bildi. Eyni cür proqramlarla Çexiya kimi ölkələr fəal şəkildə məşğul olur, həmçinin Birləşmiş Ərəb Əmirlikləri də bu istiqamətdə aktiv siyasət aparır. Yəni bu, özünü doğrultmuş, yaxşı bir praktikadır.

Əgər biz öz kinematoqrafiyamızı inkişaf etdirmək istəyiriksə, bu, kifayət qədər doğru bir qərardır. Bu mexanizm çərçivəsində yerli filmlərlə xarici filmlərin ayrılması, prinsip etibarı ilə, məntiqlidir. Amma burada bir məsələ var. Hətta bu problem bu gün nəzəri xarakter daşısa belə, hesab edirəm ki, biz onun üzərində indidən düşünməliyik. Məsələ ondadır ki, o, mahiyyət

etibarı ilə yerli prodüserlərin xarici prodüserlərlə müqayisədə diskriminasiyası üzərində qurulub. Çünki qanunda göstərilir ki, xarici filmlərə verilən güzəştlər yerli filmlərə şamil edilmir. Bunu negativ mənada söyləmirəm, hüquqi kontekstdə deyirəm. Qanun yazanların məqsədi, təbii ki, kinematoqrafın inkişafıdır. Məntiqi başa düşürəm, əvvəlcə, xarici prodüserləri ölkəyə gətiririk, sonra yerli prodüserlər artır, formalaşır. Əvvəlcə, onlar xaricilər üçün podratçı kimi çalışırlar, sonra isə öz ambisiyaları yaranır. Belə olan halda, azərbaycanlı prodüserlərin artıq bacarıqları, bilikləri və imkanları ola bilər, amma onların əlində hüquqi mexanizmlər olmaz. Ona görə də bəlkə bir az daha çevik bir qanun hazırlayaq.

Bu səbəbdən mən bir qədər fərqli mexanizmin nəzərdən keçirilməsini təklif edərdim. Bu gün Azərbaycan kinosunun böyük hissəsi dövlət büdcəsi hesabına maliyyələşdirilir, faktiki olaraq dövlət tərəfindən dəstəklənir. Mən belə bir mexanizm təklif edərdim: əgər film dövlət büdcəsi hesabına maliyyələşdirilirsə, ona bu tip güzəşt mexanizmlər tətbiq olunmasın. Amma əgər film özəl biznes tərəfindən maliyyələşdirilirsə, bu zaman güzəşt mexanizmləri tətbiq edilə bilər. Bu halda biz yerli ilə xarici arasında diskriminasiya yaranmasının qarşısını almış olarıq. Biz başa düşürük ki, hazırda Azərbaycanda özəl kinoprodüserlər bazarı faktiki olaraq yoxdur. Amma 5-6 ildən sonra bu bazar yarana bilər.

Belə nümunələr mövcuddur. Məsələn, mən ABŞ təcrübəsinə baxmışam və orada – Corciya ştatında güzəşt mexanizmləri həm amerikalı prodüserlərə, həm də xarici prodüserlərə tətbiq olunub. Bu cür “rebate”, yəni xərclərin qismən geri qaytarılması mexanizmi ona gətirib çıxardı ki, Hollivuddan çoxlu sayda film istehsalı Corciya ştatına köçdü. Nəticədə bu güzəştlər konkret olaraq xaricilərə deyil, kimliyindən asılı olmayaraq gəlib

orada film çəkən hər kəsə şamil olundu. Məhz buna görə deyirəm ki, “xarici (xarici istehsalçı) – yerli (milli istehsalçı)” bölgüsünün mexanikasını başa düşürəm. Amma ola bilsin, biz bir az daha çevik bir mexanizm düşünə bilərik ki, sabah bu qanuna yenidən qayıtmağa ehtiyac qalmasın. Çünki gələcəkdə azərbaycanlı prodüserlər tam haqlı olaraq deyə bilərlər: əgər xaricilərə olarsa, bizə niyə olmaz?!

**Soltan Məmmədov.** Xocalı soyqırımı Azərbaycan xalqının yaddaşında silinməz iz buraxmış ən ağır faciələrdən biridir. Bu faciə yalnız Azərbaycan xalqına qarşı deyil, bütövlükdə, bəşəriyyətə qarşı törədilmiş ağır cinayətdir. Mülki əhalinin məqsədli şəkildə hədəfə alınması beynəlxalq humanitar hüququn, insan hüquqları normalarının və fundamental prinsiplərin kobud şəkildə pozulmasıdır. Həmçinin dinc əhalinin məqsədli şəkildə hədəfə alınması bu hadisənin soyqırımı mahiyyəti daşıdığını açıq şəkildə ortaya qoymuşdur.

Azərbaycan Ordusu müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə, qəhrəman övladlarının rəşadəti sayəsində 28 il sonra döyüş meydanında Xocalı soyqırımının qisasını aldı. Eyni zamanda, qürurla vurğulamaq istəyirəm ki, Azərbaycan dövlətinin apardığı prinsipial və qətiyyətli siyasət nəticəsində artıq Xocalı canilərindən bəziləri Azərbaycan qanunları qarşısında cavab verərək öz layiqli cəzalarını almışlar.

Xocalı soyqırımı ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması üçün Azərbaycan dövləti tərəfindən ardıcıl və sistemli fəaliyyət həyata keçirilmişdir.

Azərbaycan dövləti diplomatik kanallar vasitəsi ilə bir sıra ölkələrin parlamentlərində Xocalı hadisələrinə siyasi-hüquqi qiymət verilməsinə nail olmuş, beynəlxalq təşkilatlar çərçivəsində məsələni daim gündəmdə saxlamışdır. Xüsusi ilə İslam Əməkdaşlıq Təşkilatı tərəfindən qəbul edilən

sənədlər Xocalı hadisələrinə beynəlxalq səviyyədə hüquqi-siyasi qiymət verilməsi baxımından vacib əhəmiyyət daşıyır.

Xocalı həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində Heydər Əliyev Fondunun yüksək səviyyəli fəaliyyətini qeyd etmək istərdim. Heydər Əliyev Fondu Xocalı həqiqətlərinin beynəlxalq miqyasda tanıdılması, tarixi ədalətin bərpası istiqamətində həm humanitar, həm də informasiya-diplomatiya müstəvisində mühüm təşəbbüslərlə çıxış etmişdir.

Fondun vitse-prezidenti Leyla xanım Əliyeva tərəfindən 2008-ci ildə başladılmış “Xocalıya ədalət!” beynəlxalq kampaniyası çərçivəsində dünyanın müxtəlif ölkələrində genişmiqyaslı tədbirlər təşkil olunmuşdur. “Xocalıya ədalət!” beynəlxalq kampaniyasının genişmiqyaslı fəaliyyəti nəticəsində dünyanın bir çox ölkələrinin parlament və qanunverici orqanları Xocalı soyqırımını tanıyan qərar və qətnamələr qəbul etmişdir.

Kampaniya vasitəsi ilə Avropa, Asiya, Amerika və digər regionlarda konfranslar, fotosərgilər, anım mərasimləri, ictimai aksiyalar keçirilib, müxtəlif dillərdə kitablar, bukletlər və sənədli materiallar hazırlanaraq yayılmışdır.

Heydər Əliyev Fondu rəqəmsal platformalarda da fəal iş apararaq sosial şəbəkələr və internet resursları vasitəsi ilə Xocalı ilə bağlı faktların müxtəlif dillərdə yayılmasını təmin edir. Fondun fəaliyyəti nəticəsində bir sıra ölkələrdə Xocalı hadisələrinə siyasi və hüquqi qiymət verilməsi istiqamətində mühüm addımlar atılmışdır.

Xocalı şəhərində inşa olunmuş və tezliklə Azərbaycan ictimaiyyətinə təqdim olunacaq Xocalı Soyqırımı Memorial Kompleksi xalqımızın qan yaddaşının yaşaması və faciə qurbanlarının əziz xatirəsinin əbədiləşdirilməsi baxımından vacib əhəmiyyət kəsb edir. Azərbaycan xalqı

bəşəriyyətin tarixinə ən dəhşətli faciələrdən biri kimi yazılmış bu soyqırımı heç vaxt unutmayacaq.

**Ülvi Quliyev.** ATƏT Parlament Assambleyasının qış sessiyasının müzakirəsinə çıxarılan məruzədə qeyd olunur ki, dövlətlərin suverenliyini təhdid etmək məqsədi ilə hibrid hücumlardan geniş istifadə olunur. Sessiyada Avropa İttifaqının Komissarı Maykl Mak Qrat açıq şəkildə bildirib ki, siyasətçilərə və onların ailə üzvlərinə qarşı xaricdən yönləndirilən hibrid hücumların əsas məqsədi siyasətçilərin iradəsinə və qərarlarına təsir etməkdir.

Azərbaycan Prezidentinə və Birinci vitse-prezidentə, ailə üzvlərinə qarşı törədilən son təxribatlar da xaricdən təşkil və idarə olunan hibrid hücumların tərkib hissəsidir. Qarabağ Zəfərindən sonra informasiya məkanına ötürülən dezinformasiyaların, şər və şantaj kampaniyasının bir məqsədi var: tarixi qələbəyə imza atmış Azərbaycan Prezidentinə bəslənilən ictimai etimada kölgə salmaq və ölkədə daxili sabitliyi pozmaq. Hibrid hücumların arxasında dayanan xarici mərkəzlər, onların xüsusi xidmət orqanları yaxşı bilirlər ki, ictimai konsensusu, ölkədaxili tarazlığı pozmadan çirkin məqsədlərinə çata bilməzlər. Çünki bilirlər ki, xalqımızın ikiəsrlik probleminin – Qarabağ məsələsinin həllinin arxasında da Azərbaycan cəmiyyətinin birliyi və öz liderinə tərəddüdsüz inamı dayanır. Kənardan təşkil olunan hibrid hücumların, davamlı təxribat kampaniyasının məqsədi bu reallığı dəyişməkdir.

Fevralın 19-da Vaşinqtonda “Waldorf Astoria” mehmanxanasının qarşısında Prezidentə və onun mühafizə xidmətinə qarşı törədilən təxribat, söyüşlə müşayiət olunan tərbiyəsizlik əvvəlcədən hazırlanmış çoxseqmentli planın tərkib hissəsidir. İstər Vaşinqtonda, istərsə də bundan əvvəl Münxendə törədilən təxribat eyni prosesin davamlı həlqələridir.

Onların ictimai rəyə təsir effektini artırmaq üçün bu prosesdə xaricdəki bəzi soydaşlarımızdan ustalıqla istifadə olunur. Bununla həm hibrid hücumunun arxasında dayanan əsl müəllifin kimliyini gizlətməyə, həm də cəmiyyətimizdə guya ictimai konsensusun olmadığını aşılamağa çalışırlar.

Təxribatlar üçün məkan və zaman seçimi də təsadüfi deyil. Birinci təxribat Bakıda ABŞ ilə "Strateji Tərəfdaşlıq Xartiyası" imzalandıqdan cəmi beş gün sonra, fevralın 15-də Münxen Təhlükəsizlik Konfransının keçirildiyi məkanda törədildi. Cənab Prezidentin Vaşinqton səfəri isə Prezident Donald Trampın təşəbbüsü ilə keçirilən Sülh Şurasında iştirakla bağlı idi və dünyanın diqqəti bu tədbirə yönəlmişdi. İkinci təxribat üçün məhz bu məkanın seçilməsi də təsadüfi deyildi. Onları təşkil edənlərin məqsədi Azərbaycan Prezidentinin və ölkəmizin imicinə, hər ötən gün artmaqda olan siyasi nüfuzuna kölgə salmaqdır.

İddia etmirəm ki, hibrid hücumlarda istifadə olunan azərbaycanlıların hamısı bir nəfər kimi xarici xüsusi xidmət orqanlarına bağlıdır və ya şüurlu şəkildə xəyanət yolunu seçiblər. Lakin belələrinin olduğuna da şübhə etmirəm. Əgər xaricdə yaşayan Hüseynov qardaşları açıq şəkildə etiraf edirlərsə ki, fəaliyyətlərində hətta xarici kəşfiyyat orqanları ilə əməkdaşlığı da mümkün sayırlar, bu, təkcə mənəviyyatsızlığın göstəricisi deyil, həm də o deməkdir ki, belələri guya siyasi mübarizə kimi təqdim etmək istədikləri fəaliyyətlərində xarici xüsusi xidmət orqanları ilə əməkdaşlığa açıq və hazırdırlar. Belələrinin əlinə verilən mikrofon, boyunlarından asılan akkreditasiya kartı isə tamaşaçının gözündə guya "müstəqil" jurnalist və ya bloger obrazının formalaşdırılmasına, daha inandırıcı görüntünün yaradılmasına xidmət edir.

Hibrid hücumların səbəb və məqsədini dolğun şəkildə təhlil edib qiymətləndirmək üçün Prezident İlham Əliyevin 2024-cü il fevralın 14-də elə

bu salonda keçirilən andiçmə mərasimindəki çıxışından kiçik bir hissəni hər birimizə, xüsusi ilə xaricdəki həmin soydaşlarımıza xatırlatmaq istərdim: “Biz elə bir bölgədə yerləşirik, bizə qarşı elə bir qüvvələr birləşib ki, bizə ziyan vurmaq üçün fürsət axtarırlar. Biz, – İkinci Qarabağ müharibəsi zamanı və antiterror əməliyyatı zamanı mən bunu artıq demişdim, – sarsılmaz hesab olunan elə bir daşları tərpətdik ki, bunu bizə bağışlamayacaqlar, biz bunu bilməliyik. Əgər kimsə hesab edir ki, bizdən əl çəkəcəklər, səhv edir”.

Hibrid hücumlar, davamlı təxribatlar, istifadə olunan çirkin üsullar, şər və şantaj ritorikası bir daha təsdiq edir ki, bədxahlarımız iyrənc əməllərindən əl çəkmir və əl çəkməyəcəklər. Bu prosesdə Azərbaycan Prezidentinin və ailə üzvlərinin hədəf seçilməsi təsadüfi deyil. Çünki söhbət Qarabağa dair iki əsrlik anti-Azərbaycan planını iflasa uğradan tarixi Zəfərdən gedir. Bədxahlarımız yaxşı bilir ki, Azərbaycan xalqı məhz Prezident İlham Əliyevin liderliyi ilə Qarabağ məsələsini kökündən həll edib, təkcə savaş meydanında deyil, həm də siyasi-hüquqi müstəvidə tarixi nailiyyətə imza atıb. Bu, işğalçı Ermənistanla yanaşı, həm də onun çoxsaylı havadarları üzərində tam və mütləq qələbə deməkdir.

Hibrid hücumların arxasında dayanan mərkəzlərin məqsədi dezinformasiya və təxribatlar yolu ilə əvvəlcə bu qələbəyə kölgə salmaq, sonra isə onu xalqımızın əlindən almaqdır. Bu məkrli planda istifadə olunan və ya ona şüurlu şəkildə qoşulan, xəyanət yolunu seçən xaricdəki bəzi soydaşlarımız bir həqiqəti bilməlidirlər: hüquqi məsuliyyət fərdi xarakter daşıyır və konkret vaxtla məhdudlaşır. Ümummilli məsələlərlə bağlı xalqın qınağı və ictimai məzəmmət isə heç bir sərhəd tanımır, hətta zamanla da məhdudlaşmır. Bu mənəvi yük hüquqi məsuliyyətdən dəfələrlə ağırdır. Bu

damğa altında yaşamağı heç bir soydaşımıza arzu etmirəm. Lakin seçimi hər kəs özü edir.